*Silahlı Qüvvələrin yaradılması Azərbaycanın dövlət müstəqilliyini və suverenliyini təsdiq edən, onu nümayiş etdirən amillərdən biridir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır    29 iyun 2016-cı il    № 49 (2064)    Qiyməti 25 qəpik


Ali Baş Komandan İlham ƏLİYEV:

## Bu gün ordumuz maddi-texniki təchizat baxımından güclü ordular sırasındadır

### Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev hərbçilər üçün inşa edilmiş binada yaradılan şəraitlə tanış olub

***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyunun 25-də Bakının Xətai rayonunda hərbçilər üçün inşa edilmiş yaşayış binasında yaradılan şəraitlə tanış olub.***

Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənov Prezident, Ali Baş Komandan İlham Əliyevə raport verdi.

Müdafiə naziri Zakir Həsənov və Bakı şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov dövlətimizin başçısına bina haqqında məlumat verdilər.

Bildirildi ki, bina Müdafiə Nazirliyinin həqiqi hərbi xidmət hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə Prezident İlham Əliyevin 2010-cu ildə imzaladığı sərəncama uyğun olaraq tikilib. Sərəncama əsasən, Müdafiə Nazirliyinin xidməti mənzilə və mənzil şəraitinin yaxşılaşdırılmasına ehtiyacı olan həqiqi hərbi xidmət hərbi qulluqçuları üçün Bakı şəhərində yaşayış binalarının tikintisinin həyata keçirilməsi məqsədi ilə 2010-cu ilin dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Bakı şəhər İcra Hakimiyyətinə vəsait ayrılıb. Yeni bina bir girişli olmaqla 14 mərtəbəlidir. Burada ümumilikdə 65 mənzil var. Onlardan 39-u ikiotaqlı, 26-sı isə üçotaqlıdır. İkiotaqlı mənzillərin sahəsi 91, üçotaqlı mənzillərin sahəsi isə 100 kvadratmetrdir. Binada sərnişin və yük liftləri quraşdırılıb. Domofon, yanğınsöndürmə, siqnalizasiya, havalandırma və kombi sistemləri ilə təmin olunan mənzillərə telefon, internet, televiziya xətləri çəkilib. Təbii qazla təchiz olunan binanın həyətində yanğın və içməli su anbarları inşa edilib, idman avadanlıqları qoyulub, yaşıllıq zolağı salınıb, işıqlandırma sistemi quraşdırılıb. Binanı daimi su ilə təchiz edən nasos stansiyası və zirzəmidə müasir avtomobil dayanacağı yaradılıb.



Bu cür müasir yaşayış binalarının inşası sübut edir ki, hərbi qulluqçuların sosial müdafiəsini gücləndirmək, onların məişət şəraitini yaxşılaşdırmaq məqsədi ilə mühüm layihələr icra olunur. Milli Ordumuzun şəxsi heyətinin həyat şəraitinin yaxşılaşdırılması məsələsinə xüsusi diqqətlə yanaşan Prezident, Ali Baş Komandan İlham Əliyev bu istiqamətdə çox mühüm və ardıcıl tədbirlər həyata keçirir.

Sonra dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyev hərbçilərlə görüşdü və çıxış etdi:

- Əziz hərbçilər, hörmətli mərasim iştirakçıları.

İlk növbədə, sizi və bütün Azərbaycan xalqını qarşıdan gələn Silahlı Qüvvələr Günü münasibətilə təbrik etmək istəyirəm. Azərbaycan Silahlı Qüvvələrinin bütün şəxsi heyətinə yeni uğurlar arzulayıram.

Bu gözəl bayram ərəfəsində biz hərbçilər üçün tikilmiş yeni yaşayış binasının açılışına toplaşmışıq. Bu bina qısa bir müddətdə tikilibdir, 65 mənzildən ibarətdir. Mən indi mənzillərlə tanış oldum, gördüm ki, doğrudan da, şərait çox yaxşıdır, bütün mənzillər təmirlidir. Əminəm ki, burada hərbçilər, onların ailələri rahat yaşayacaqlar.

Bu binanın tikintisi bir daha onu göstərir ki, hərbi qulluqçuların mənzil-məişət problemləri Azərbaycanda uğurla həll edilir. Bildiyiniz kimi, 2011-ci ilin sonunda imzaladığım müvafiq sərəncam əsasında 20 il ərzində hərbi xidmətdə qüsursuz xidmət göstərmiş hərbçilərə dövlət tərəfindən dövlət vəsaiti hesabına tikilmiş mənzillər verilir. Bu proqram çərçivəsində artıq 900-ə yaxın hərbçi mənzillə təmin edilib, yüzlərlə hərbçinin mənzil-məişət problemləri yaxın zamanlarda öz həllini tapacaq. Bu proqramın icrası üçün bu günə qədər dövlət büdcəsindən 100 milyon manatdan çox vəsait ayrılmışdır. Yəni, biz ordumuzu gücləndiririk, ordunun maddi-texniki bazasını möhkəmləndiririk, bununla bərabər, hərbçilərin məişət problemləri öz həllini tapır.

Hərbçilərin xidmət şəraiti də yaxşılaşır. Bu gün Azərbaycanın müxtəlif ərazilərində yerləşən hərbi hissələrdə, hərbi şəhərciklərdə müvafiq göstərişlər əsasında təmir-bərpa işləri aparılır, yeni hərbi bazalar tikilir.

Keçən il biz Silahlı Qüvvələr Günü ərəfəsində Hərbi Dəniz Qüvvələrinin Bakıda, Xəzər sahilində tikilmiş bazasının açılışını qeyd etmişdik. Bu baza Xəzərdə ən böyük hərbi obyektlərdən biridir və orada bütün şərait yaradılıbdır. Eyni zamanda bütün digər hərbi hissələrdə təmir-bərpa işləri aparılır və qarşıya vəzifə qoymuşam ki, bir dənə də təmirsiz hərbi hissə olmasın. Hərbçilərin yaşayış və xidmət şəraiti yaxşı olmalıdır. Bu, bir daha onu göstərir ki, Azərbaycanda ordu quruculuğu prosesinə çox böyük diqqət göstərilir, bu da təbiidir. Hər bir ölkə bunu etməlidir, xüsusilə müharibə şəraitində yaşayan bir ölkə.

Azərbaycanın iqtisadiyyatı artır, bizim maliyyə imkanlarımız genişlənir və bildiyiniz kimi, dövlət büdcəsinin əsas xərcləri hərbi məqsədlərə sərf olunur. Büdcə xərclərinin artması nəticəsində son illər ərzində Azərbaycanda görülən işlər göz qabağındadır. Bu gün ordumuz maddi-texniki təchizat baxımından güclü ordular sırasındadır. Son illər ərzində əldə etdiyimiz texnika, silah-sursat ən yüksək standartlara cavab verir. Bu gün ordumuz yüksək dəqiqliyə və çox böyük dağıdıcı qüvvəyə malik olan hərbi silahlardan istifadə edir. Yəni, ordumuzun bütün ehtiyacları təmin edilir. Bununla bərabər, bir neçə ildir ki, artıq əsgərlər hərbi hissələrdə mülki işlərə cəlb olunmurlar, onların yerinə mülki vətəndaşlar cəlb edilibdir və biz burada iki məqsədi güdürük - ilk növbədə, əsgərlər orduda xidmət etməli və öz peşəkarlıqlarını artırmalıdırlar, digər tərəfdən, bu, mülki vətəndaşlar üçün yeni iş yerlərinin açılması deməkdir. Bu proqram çərçivəsində artıq minlərlə mülki şəxs hərbi hissələrdə işləyir, yaxşı maaş alır. Mən hərbi hissələrdə olarkən onlarla da söhbət edirəm və görürəm ki, onlar da bu işlərdən çox razıdırlar.

**(Ardı 2-ci səhifədə)**

AZƏRBAYCAN ORDUSU

## Ali Baş Komandan İlham ƏLİYEV:

# Bu gün ordumuz maddi-texniki təchizat baxımından güclü ordular sırasındadır

### Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev hərbçilər üçün inşa edilmiş binada yaradılan şəraitlə tanış olub

(Əvvəli 1-ci səhifədə)

Bir sözlə, Azərbaycanda ordu quruculuğu prosesi məqsədyönlü və planlı şəkildə aparılır, görülən işlər də göz qabağındadır.

Bununla paralel olaraq, Azərbaycanda hərbi-sənaye kompleksi yaradılıb və mindən çox adda hərbi təyinatlı məhsul istehsal edilir. Bu, həm ordumuzun ehtiyacını ödəyir, eyni zamanda, biz artıq xarici bazarlara da çıxmışıq. Bakıda keçirilmiş müdafiə sənayesi sərgisi bir daha onu göstərir ki, artıq Azərbaycan bu istiqamətdə də böyük uğurlara imza atıb. Çünki birinci sərgiyə çox böyük maraq var idi. Orada nümayiş etdirilən hərbi təyinatlı məhsullar dünyanın aparıcı şirkətləri tərəfindən istehsal edilmişdir və onlardan bir hissəsini artıq Azərbaycan əldə edib. Beləliklə, müxtəlif ölkələrdə keçirilən ənənəvi müdafiə sənayesi sərgiləri ilə yanaşı, bu gün Azərbaycan da bu məsələdə öz imzasını qoyub.

Qeyd etdiyim kimi, Azərbaycanda ordu quruculuğu prosesi planlı şəkildə aparılır. Əlbəttə ki, bu prosesdə maddi-texniki təchizat mühüm yer tutur. Çünki bu gün dünyada inkişaf edən texnologiyalar nəinki elmdə, sənayedə, iqtisadiyyatda, eyni zamanda, hərbi sahədə də özünü göstərir və növbəti onilliklərin müharibələri texnologiyalar müharibələri olacaq. Əlbəttə, adi silahlar da həmişə olduğu kimi, öz rolunu oynayacaq. Ancaq bu gün müxtəlif yerlərdə, müharibələrdə, toqquşmalarda gördüyümüz mənzərə bundan ibarətdir ki, hərbi üstünlüyü bütün digər amillərlə yanaşı, texnoloji tərəqqi də böyük dərəcədə müəyyən edir. Ona görə Azərbaycana gətirilən ən müasir silah-sursat, texnika yüksək texnoloji səviyyəyə cavab verir.

Mən maddi-texniki təminatı daha da genişləndirmək və yaxşılaşdırmaq üçün bu yaxınlarda müvafiq göstərişlər vermişəm. Artıq Azərbaycana yeni silahlar, texnikalar gətirilir. Bu, son bir-iki ay ərzində baş verir. Bu proses davam etdiriləcəkdir. Bizim kifayət qədər maddi imkanlarımız var və biz bir çox ölkələrdən hərbi təyinatlı məhsullar alırıq. Yəni, demək istəyirəm ki, bir mənbədən asılı deyilik. Biz bütün başqa sahələrdə olduğu kimi, bu sahədə də şaxələndirmə yolu ilə gedirik. Əlbəttə, biz gələcəkdə də çalışmalıyıq və çalışacağıq ki, Azərbaycan Ordusuna daim ən müasir silahları və texnikanı gətirək. Əminəm, buna nail olacağıq. Bununla paralel olaraq, əlbəttə, bizim hərbçilərimiz də müvafiq təlim kursları keçərək bu texnikadan istifadə etmək üçün artıq böyük peşəkarlığa malikdirlər və son vaxtlar təmas xəttində baş vermiş hadisələr bunu bir daha təsdiqlədi.

Ordu quruculuğu prosesi, təbii ki, təkcə maddi-texniki təminatla məhdudlaşmır. Döyüş qabiliyyəti, əsgər-zabit heyətinin mənəvi-psixoloji durumu mühüm yer tutur. Mən tam əminliklə deyə bilərəm ki, bu baxımdan Azərbaycan Ordusu güclü ordular sırasındadır. Döyüş qabiliyyəti artır, orduda mənəvi-psixoloji vəziyyət çox müsbətdir, vətənpərvərlik ruhu, nizam-intizam yüksək səviyyədədir. Əlbəttə, bütün bu amillər bizim hərbi gücümüzü daha da artırır. Mən son illər ərzində dəfələrlə qeyd etmişəm ki, bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır və aprel döyüşləri bunu bir daha sübut etdi. Bütün dünyaya sübut etdi ki, bu gün Azərbaycanla hesablaşmaq lazımdır.

Azərbaycan nəinki iqtisadi və sənaye gücünə malikdir, biz hərbi sahədə də artıq böyük nailiyyətlərə çata bilmişik. Bu proses daim aparılacaqdır, döyüş qabiliyyəti daim təkmilləşməlidir və Azərbaycan qarşıda duran bütün vəzifələri bundan sonra da uğurla icra edəcəkdir.

Biz müharibə şəraitində yaşayırıq və təbii ki, hərbi məsələlərə ən böyük diqqət göstərilir. Bu, bizim gündəlik işimizdə əsas prioritet məsələdir və qeyd etdiyim kimi, dövlət büdcəmizdə də bu siyasət öz əksini tapır.

Uzun illərdir ki, torpaqlarımız işğal altındadır. Əfsuslar olsun ki, beynəlxalq hüququn norma və prinsipləri Ermənistan tərəfindən kobudcasına pozulur, beynəlxalq təşkilatların qəbul etdikləri qərarlar, qətnamələr icra edilmir, kağız üzərində qalır və beynəlxalq hüquq əslində işləmir. Belə olan halda, əlbəttə ki, biz hərbi gücümüzü daha da artırmalıyıq. Bununla bərabər, əlbəttə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün diplomatik və siyasi səylərimizi davam etdirəcəyik.

Bildiyiniz kimi, Ermənistan danışıqlar prosesini pozmaq və danışıqlar prosesinə zərbə vurmaq üçün aprel ayında bizə qarşı silahlı təxribata əl atdı. Bizim mövqelərimiz atəş altına düşdü. Mülki vətəndaşlara qarşı silahdan istifadə edildi və 6 mülki şəxs erməni təxribatı nəticəsində həlak oldu. Hərbçilərimiz həlak oldular, yaralandılar. Təbii ki, Azərbaycan düşmənə layiqli cavab verməli idi və verdi. Aprel döyüşləri, - mən bunu artıq demişəm, - tarixdə bizim böyük hərbi qələbəmiz kimi qalacaqdır. Azərbaycan Ordusu böyük qəhrəmanlıq göstərib, işğal edilmiş torpaqların bir hissəsini, daha dəqiq desəm, Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini işğalçılardan azad edib və strateji yüksəklikləri öz nəzarəti altına qaytarıbdır.

Əminəm ki, bu hadisələr həm Ermənistana, həm də bu məsələ ilə məşğul olanlara ciddi siqnal oldu. Çünki Ermənistanın istəyi sirr deyil. Onlar bu prosesi sonsuz proses kimi görmək, status-kvonu saxlamaq istəyirlər. Göründə ki, onlara qarşı beynəlxalq vasitəçilər tərəfindən təzyiq artır, müxtəlif təxribatlara əl atırlar. Məsələn, 2014-cü ilin noyabrında bizə qarşı silahlı təxribat törətdilər və biz layiqli cavab verəndən sonra bundan istifadə edərək, bunu bəhanə gətirərək Ermənistan danışıqları, demək olar ki, dondurmuşdu. 2014-cü ilin noyabrından 2015-ci ilin dekabrına qədər demək olar ki, heç bir danışıq aparılmırdı. 2015-ci ilin dekabrında Ermənistan və Azərbaycan prezidentlərinin görüşü formal xarakter daşıyırdı. Göründə ki, bu il onlara vasitəçilər tərəfindən siyasi təzyiq artır, növbəti silahlı təxribata əl atdılar. Amma əminəm ki, indi bunun acısını çəkirlər.

Münaqişə tezliklə həll olunmalıdır, beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapmalıdır. Bizim mövqeyimizdə heç bir dəyişiklik yoxdur, ola da bilməz. Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınır. BMT Təhlükəsizlik Şurası bu məsələ ilə bağlı 4 qətnamə qəbul edibdir. BMT Təhlükəsizlik Şurasından daha ali beynəlxalq orqan yoxdur və bu qətnamələrdə göstərilir ki, erməni silahlı birləşmələri dərhal və qeyd-şərtsiz bizim torpaqlarımızdan çıxarılmalıdır və çıxarılacaqdır.

Ona görə, budur, məsələnin həll yolları. Heç vaxt Azərbaycan dövləti öz tarixi torpaqlarında ikinci erməni dövlətinin yaranmasına imkan verməyəcək və bu, danışıqlar mövzusu deyil, heç vaxt olmamışdır. Məsələ mərhələli yolla öz həllini tapa bilər və əminəm ki, biz məsələni bu yolla həll edə bilərik. Ancaq əlbəttə ki, burada işğalçı Ermənistana beynəlxalq vasitəçilər və geniş mənada beynəlxalq birlik tərəfindən daha da ciddi təzyiq göstərilməlidir.







(Ardı 3-cü səhifədə)

## Ali Baş Komandan İlham ƏLİYEV:

# Bu gün ordumuz maddi-texniki təchizat baxımından güclü ordular sırasındadır

### Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev hərbçilər üçün inşa edilmiş binada yaradılan şəraitlə tanış olub







(Əvvəli 2-ci səhifədə)

Bildiyiniz kimi, aprel hadisələrindən sonra Ermənistan rəhbərliyi danışıqları davam etdirmək üçün bir neçə şərt irəli sürmüşdür. Onların heç biri, təbii ki, qəbul oluna bilməz. Çünki bizə heç kim şərt qoya bilməz. Danışıqları aparmaq bizə göstərilən minnət deyil. Ermənistan tərəfi yaxşı başa düşür ki, əgər danışıqlar dondurulsa, ya pozulsa, onları nələr gözləyir. Ona görə, təbii ki, Azərbaycan tərəfi danışıqlara heç bir şərt qəbul etmədən qoşulmuşdur. Vyana görüşü Amerika Birləşmiş Ştatlarının təşəbbüsü ilə keçirilmişdir. Hesab edirəm ki, Vyana görüşünün müsbət nəticələri olmuşdur. Yəni, Ermənistan tərəfinin qoyduğu şərtlər qəbul edilmədi. Azərbaycan tərəfi Vyanada hər hansı bir sənədə imza atmadı. Sadəcə olaraq, həmsədr ölkələr öz bəyanatını verdilər, bu, onların bəyanatıdır.

Müsbət hal ondan ibarətdir ki, Vyana görüşündən bir ay keçəndən sonra artıq Rusiya tərəfinin təşəbbüsü ilə Sankt-Peterburq şəhərində növbəti görüş keçirilmişdir. Bu görüşü biz müsbət qiymətləndiririk. Xarici İşlər Nazirliyi Azərbaycanın rəsmi mövqeyini bildirmişdir və bu mövqe, təbii ki, ictimaiyyət üçün də açıqdır.

Mən öz tərəfimdən qeyd etmək istəyirəm və hesab edirəm ki, Sankt-Peterburq görüşünün müsbət nəticələri var. Ümid edirəm ki, bu proses sürətlə davam etdiriləcəkdir. Yenə də heç bir şərt qəbul etmədən biz bu danışıqlara gedirik. Danışıqlar mənalı, predmetli olmalıdır, sadəcə olaraq görüntü, imitasiya naminə aparılmamalıdır.

Sankt-Peterburq görüşünün nəticəsi olaraq birgə bəyannamə qəbul edilmişdir. O da ictimaiyyət üçün təqdim edildi. O bəyannamədə hər şey, xüsusilə, məsələnin həlli yolları göstərilir. Bununla bərabər, ATƏT sədrinin şəxsi nümayəndəsinin ofisinin işçilərinin say tərkibinin artırılması məsələsi də müzakirə edilmişdir. Düzdür, orada say göstərilmir. Ancaq mən deyə bilərəm ki, əgər bu gün o ofisdə 6 nəfər işləyirsə, bu, maksimum 2 dəfə, 2.5 dəfə artırıla bilər. Yəni, burada böyük missiyadan söhbət getmir. Nəzərə alsaq ki, təmas xətti on kilometrlərlə ölçülür, bu işlərin başqa mənasını axtarmaq lazım deyil. Ofisin mandatı da yerindədir, heç bir dəyişiklik yoxdur. Sadəcə olaraq, 6 nəfərin əvəzinə 12, ya 13, ya 14 nəfər olacaqdır, vəssalam.

O ki qaldı ermənilərin şərt kimi ortaya qoyduqları insidentlərin araşdırılması mexanizminin tətbiqinə, hesab edirəm ki, buna indiki mərhələdə ehtiyac yoxdur. Birincisi, bu mexanizmlər yoxdur. Bizə heç kim konkret demir ki, bu, nədən ibarət olacaqdır. Belə olan halda, bu məsələyə bu gün baxmaq düzgün olmazdı. İkincisi, bunun mənası nədən ibarətdir? Əgər bunun mənası ondan ibarətdir ki, münaqişə dondurulsun və təmas xəttində hansısa əlavə tədbirlər görülsün, əlbəttə, Azərbaycan buna getməyəcək. Bu, o vaxt ola bilər ki, danışıqlar prosesində müsbət dinamika davam etdirilsin, biz konkret nəticələri görək, bilək ki, nə vaxt bizim torpaqlarımız işğaldan azad olunacaq, onda, əlbəttə, müxtəlif mexanizmlər işlənə və o vaxt bu məsələyə baxıla bilər.

Mən Sankt-Peterburqda qəbul etdiyimiz bəyanatda bir mühüm məsələyə də toxunmaq istəyirəm. Orada qeyd edildi ki, son vaxtlar təmas xəttində vəziyyət sabitdir, atəşkəs bərpa edilib və bu, müsbət hal kimi qiymətləndirilir. Belə olan halda, heç bir insidentlərin araşdırılması mexanizminin tətbiqinə ehtiyac qalmır. Yəni, o şərt də qəbul edilmədi.

Bir daha demək istəyirəm ki, biz məsələnin mahiyyəti əsasında danışıqlar aparmalıyıq. Ermənistanın işğalçı siyasətinə son qoyulmalıdır. Biz bilməliyik ki, torpaqlarımızın azad edilməsi prosesi nə vaxt başlanacaq. Əlbəttə ki, bu proses olacaq. Azərbaycan tərəfi və mən şəxsən dəfələrlə qeyd etmişdim ki, biz bu münaqişəni ancaq mərhələli yolla həll edə bilərik. Çünki başqa cür mümkün deyil. Ermənistan həmişə çalışırdı ki, vəziyyəti daha da mürəkkəbləşdirsin, danışıqlar prosesini və mərhələli həll variantını pozsun. Ancaq bizdə olan fikirlərə görə, bu yol ən məqbul yoldur. Bu, tezliklə məsələnin həllinə gətirib çıxara bilər.

Yenə də qeyd etmək istəyirəm ki, Azərbaycan dövlətinin məsələnin həlli ilə bağlı prinsipial mövqeyi ortadadır. Bu mövqedə heç bir dəyişiklik olmamışdır və olmayacaqdır. Bir daha qeyd etmək istəyirəm ki, məsələ Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Heç vaxt Dağlıq Qarabağa müstəqillik verilməyəcək, heç vaxt Azərbaycanın tarixi torpaqlarında ikinci erməni dövləti yaranmayacaq.

Bu, əsas məsələdir. O ki qaldı Dağlıq Qarabağın statusuna, bu, sonranın işidir. Əlbəttə ki, müəyyən status ola bilər. Azərbaycanın tərkibində Naxçıvan Muxtar Respublikası mövcuddur. Bunun muxtariyyət statusu var. Avropada, digər ölkələrdə mütərəqqi təcrübə və müxtəlif statuslar var. Ancaq bu status ölkəmizin ərazi bütövlüyünü pozmamalıdır.

Bir məqamı da qeyd etmək istəyirəm ki, həm 2008-ci ildə Rusiya, Azərbaycan, Ermənistan prezidentlərinin imzaladıqları sənəddə, - ona "Mayn Dorf" bəyannaməsi deyirlər, - həm də bu ay Sankt-Peterburqda qəbul edilmiş bəyanatda Helsinki Yekun Aktına istinad edilir. Ermənistan tərəfi getsin Helsinki Yekun Aktını diqqətlə oxusun. Orada prinsiplər açıq-aydın göstərilir və ərazi bütövlüyü prinsipi üstünlük təşkil edir. Düzdür, orada xalqların öz müqəddəratını müəyyənetmə prinsipi də var. Amma birincisi, erməni xalqı öz müqəddəratını müəyyən edib, onların Ermənistan dövləti var. Baxmayaraq ki, o dövlət də tarixi Azərbaycan torpaqlarında yaradılıbdır. İkincisi, xalqların müqəddəratını təyinetmə, müəyyənetmə prinsipi ölkələrin ərazi bütövlüyünü pozmamalıdır. Bu, beynəlxalq prinsiplərdir və hər bir ölkə buna riayət etməlidir.

Biz ordu quruculuğuna bundan sonra da ciddi diqqət yetirəcəyik. Bu məsələ - ordu quruculuğu prosesi həmişə prioritet olaraq qalacaq. Azərbaycan Ordusu bu gün istənilən vəzifəni icra etməyə hazırdır, buna qadirdir. Ordu quruculuğunun ölkəmizin müstəqillik illərində belə sürətlə inkişafı, əlbəttə ki, hər bir Azərbaycan vətəndaşını sevindirir. Biz fəxr edirik ki, bizim güclü ordumuz var. Mən dəfələrlə demişəm ki, Azərbaycan güclü dövlətdir və Azərbaycanın güclü ordusu var.

Əziz hərbçilər, sizi qarşıdan gələn Silahlı Qüvvələr Günü münasibətilə bir daha ürəkdən təbrik edirəm, sizə cansağlığı, yeni uğurlar arzulayıram. Sağ olun.

* * *

Sonra Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev hərbçilərin bir qrupuna mənzillərin açarlarını və müqavilələrini təqdim etdi.

* * *

Mənzil alan hərbçilərin və ailə üzvlərinin minnətdarlığını çatdıran mayor Əhməd Qafarov dedi:

- Möhtərəm Prezident, cənab Ali Baş Komandan. Biz hərbçilər Sizdən həmişə diqqət və qayğı görürük. Bu gün Sizin yeni mənzillərin açarlarını bizə təqdim etməyiniz hər birimizin ailəsi üçün böyük fəxrdir.

Cənab Prezident, Sizi əmin edirik ki, göstərilən etimadı Vətənə, xalqa, dövlətə və ulu öndərimiz Heydər Əliyevin ideyalarına sədaqətli xidmətimizlə doğruldacağıq. Çox sağ olun, cənab Prezident.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

**AZƏRTAC**

# Prezident İlham Əliyev Silahlı Qüvvələrin Baş Qərargahının yeni inzibati binasının açılışında iştirak edib

***İyunun 25-də Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev Silahlı Qüvvələrin Baş Qərargahının yeni inzibati binasının açılışında iştirak edib.***



Müdafiə naziri general-polkovnik Zakir Həsənov Prezident, Ali Baş Komandan İlham Əliyevə raport verdi.

Dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi.

Sonra Prezident İlham Əliyev binada yaradılan şəraitlə tanış oldu.

Binada ulu öndər Heydər Əliyevin büstü qoyulub, ümummilli liderin həyat və fəaliyyətinin əks olunduğu muzey yaradılıb. Muzeydə ulu öndərin ordu quruculuğu fəaliyyətinə geniş yer verilib. Ümummilli liderin respublikaya rəhbərliyinin həm birinci, həm də ikinci dövründə ölkədə ordu quruculuğu ilə bağlı həyata keçirdiyi tədbirləri əks etdirən fotolar muzeydə sərgilənir. Bundan əlavə, Prezident İlham Əliyevin güclü maddi-texniki bazaya malik, vətənpərvər ordunun formalaşdırılması istiqamətində gördüyü işlər də muzeydə geniş əks olunub.

Baş Qərargahın binasında müxtəlif tədbirlərin keçirilməsinə imkan verən, səsyazma və proyektor sistemləri ilə təchiz olunan akt zalı da yaradılıb.

Bildirildi ki, ümumi sahəsi 12600 kvadratmetr olan altımərtəbəli binada bütün otaqlar müasir avadanlıq və inventarla təchiz edilib.

Daha sonra Prezident İlham Əliyev Mərkəzi Komanda Məntəqəsinin fəaliyyəti ilə tanış oldu.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov və Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov Prezident, Ali Baş Komandan İlham Əliyevə məlumat verdilər ki, Silahlı Qüvvələrin gündəlik və döyüş fəaliyyətinin planlaşdırılması və idarə olunması üçün yaradılan məntəqədə 140 nəfərin işləməsi üçün hər cür şərait var. Məntəqəyə hərbi idarəetmə sisteminin müxtəlif elementləri daxildir. Bildirildi ki, Mərkəzi Komanda Məntəqəsi əməliyyat şəraiti barədə məlumatların toplanmasına və təhlilinə, qoşunların döyüşə hazırlıq prosesinə, döyüş xidmətinin aparılmasına nəzarət edilməsinə, döyüş fəaliyyətinə hazırlıq dövründə və onun gedişində qoşunların idarə olunmasına, digər idarəetmə məntəqələri ilə müxtəlif növ məlumat mübadiləsinin aparılmasına və videokonfransların təşkilinə, videoməlumatların ötürülməsinə imkan verir.

Sonra düşmən müdafiəsinin dərinliyində hava kəşfiyyatı aparan pilotsuz uçuş aparatından və aerostatdan alınan görüntülər nümayiş etdirildi.

Daha sonra əsas komanda məntəqələri ilə birbaşa videobağlantılar quruldu. Müxtəlif ordu korpuslarının və birliklərinin komandirləri videobağlantı vasitəsilə Prezident, Ali Baş Komandan İlham Əliyevə raport verdilər.

Sonda Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev müxtəlif təyinatlı zirehli döyüş maşınlarına baxdı.

Bu maşınların funksiyaları və imkanları barədə dövlətimizin başçısına ətraflı məlumat verildi.





## XİN rəsmisi: Azərbaycan-NATO əlaqələri uğurla inkişaf edir

Azərbaycan-NATO əlaqələri uğurla inkişaf edir, tərəflər arasında müntəzəm dialoq qurulub.

Bu fikri NATO-nun Azərbaycanda Beynəlxalq Məktəbinin (NISA) yay sessiyasının açılışında Xarici İşlər Nazirliyinin beynəlxalq təhlükəsizlik departamentinin rəhbəri Qaya Məmmədov deyib.

O qeyd edib ki, Azərbaycan NATO ilə hazırkı əməkdaşlıqdan razıdır. Bu əməkdaşlıq ərazi bütövlüyü və suverenliyə hörmət prinsipinə əsaslanır.

Q.Məmmədov bildirib ki, Azərbaycan NATO-nu beynəlxalq təhlükəsizliyin qorunmasına təminat verən vacib təşkilat hesab edir.

Ölkəmiz Alyansın Əfqanıstandakı sülhməramlı missiyasının bir hissəsidir.

Xarici İşlər Nazirliyinin departament rəhbəri məlumat verib ki, NISA-nın iyunun 27-də başlayan yay sessiyası iyulun 1-də başa çatacaq. Budəfəki mövzusu "NATO-nun Varşava Sammiti: Alyansın regional çağırışlara münasibətdə rolu" olan sessiyada müxtəlif ölkələrdən 40 nümayəndə iştirak edir.

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

**26 iyun 2016-cı il.**

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 12 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Aygeovit kəndində yerləşən mövqelərdən Qazax rayonunun Balacəfərli kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun Çiləbürt, Füzuli rayonunun Horadiz, Aşağı Seyidəhmədli, Aşağı Veysəlli kəndləri yaxınlığında yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

**27 iyun 2016-cı il.**

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 10 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Paravakar, Berkaber, Noyemberyan rayonunun Dovex kəndlərində yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Qızılhacılı və Kəmərli kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun Çiləbürt, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli kəndləri yaxınlığında, həmçinin Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

**28 iyun 2016-cı il.**

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 17 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Paravakar, Noyemberyan rayonunun Voskevan kəndlərində yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq kəndində, Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə və Quşçu Ayrım kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qorqan, Horadiz, Aşağı Seyidəhmədli kəndləri yaxınlığında, həmçinin Füzuli rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

### Silahlı Qüvvələrimizin nümayəndələri beynəlxalq tədbirlərdə iştirak edirlər

İyunun 27-dən iyulun 1-dək Varna şəhərində (Bolqarıstan Respublikası) Tərəfdaşlıq Təlim və Tədris Mərkəzlərinin işçi qrupunun toplantısı, iyunun 27-dən iyulun 8-dək Oberammerqau şəhərində (Almaniya Federativ Respublikası) maddi-texniki təminat üzrə mübadilə proqramı çərçivəsində hərbi yerdəyişmə və daşımalar seminarı, iyunun 27-dən iyulun 15-dək Saçxere şəhərində (Gürcüstan) təməl yay dağ hazırlığı kursu keçirilir.

Tədbirlərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri də iştirak edirlər.

# Müdafiə Nazirliyinin rəhbərliyi Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət edib





İyunun 26-da Müdafiə naziri general-polkovnik Zakir Həsənovun başçılığı ilə nazirliyin rəhbərliyi və şəxsi heyəti Silahlı Qüvvələr Günü münasibətilə Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət ediblər.

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsi önünə və Zərifə xanım Əliyevanın məzarına əklil və gül dəstələri qoyulub, xatirələri hörmət və ehtiramla yad edilib.

Sonra Müdafiə Nazirliyinin şəxsi heyəti Şəhidlər xiyabanını ziyarət edib. Vətənimizin suverenliyi və ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə həlak olmuş vətəndaşlarımızın xatirəsinə ucaldılmış Şəhidlər kompleksindəki Əbədi məşəlin önünə və şəhid məzarlarına da əklil və gül dəstələri qoyulub.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Müdafiə naziri xüsusi təyinatlı təhsil müəssisələrinin məzunları ilə görüşüb



***İyunun 27-də Silahlı Qüvvələrin Baş Qərargahının yeni inzibati binasında Silahlı Qüvvələrin Hərbi Akademiyası, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi və Azərbaycan Tibb Universiteti Hərbi Tibb Fakültəsinin bir qrup məzunu ilə görüş keçirilib.***

Müdafiə Nazirliyinin, xüsusi təyinatlı təhsil müəssisələri rəhbərlərinin və bir qrup məzunun iştirakı ilə keçirilən tədbir xalqımızın ümummilli lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü, suverenliyi uğrunda şəhid olanların xatirəsinin yad edilməsi ilə başlayıb.

General-leytenant Nizam Osmanov 2016-cı il məzunlarının keçdiyi kursların əhəmiyyəti, hərbi təhsilin daha da təkmilləşdirilməsi məqsədilə son dövrlərdə aparılan islahatlar və tədrisin keyfiyyətinin yüksəldilməsi istiqamətində həyata keçirilən fəaliyyətlər barədə qısa məlumat verib. O, hərbi təhsil sahəsinə göstərilən diqqətə görə Ali Baş Komandana və nazirliyin rəhbərliyinə minnətdarlığını bildirib.

Sonra Müdafiə naziri general-polkovnik Zakir Həsənov məzunlar qarşısında çıxış edib. Nazir əvvəlcə növbəti buraxılışın məzunlarını ilk zabit rütbələri almaları münasibətilə təbrik edərək, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, orduda aparılan son islahatlar, hərbi təhsil sistemində həyata keçirilən vacib tədbirlər, təşkilat-ştat strukturunun təkmilləşdirilməsi, Silahlı Qüvvələrin şəxsi heyətinin döyüş, texniki və mənəvi-psixoloji hazırlığında qarşıda duran mühüm vəzifələrdən danışıb.

Döyüş hazırlığının artırılması məqsədilə silahlanmaya ən müasir döyüş texnikası və hərbi təyinatlı vasitələr qəbul edilir, planauyğun müxtəlif səviyyəli təlimlər keçirilir, yeni poliqonlar tikilir, şəxsi heyətin sırf döyüş hazırlığı ilə məşğul olması üçün mülki vətəndaşların işə cəlb olunması, döyüş qabiliyyəti tələb edən vəzifələrə ixtisaslı mütəxəssislərin təyin edilməsi prosesi sürətlə həyata keçirilir.

Müdafiə naziri bildirib ki, hərbi qulluqçuların təminatının, sosial-məişət şəraitinin, sağlamlıq məsələlərinin daim diqqətdə saxlanılması və yaxşılaşdırılması üçün yeni hərbi şəhərciklərin, daimi və xidməti mənzillərin istifadəyə verilməsi davam edir.

Apreldə cəbhə xəttində baş verən hadisələrə toxunan nazir Silahlı Qüvvələrimizin şəxsi heyətinin döyüş hazırlığının yüksək səviyyədə olmasını bir daha vurğulayıb. General-polkovnik Zakir Həsənov qeyd edib ki, hadisələr dövlətimizin, xalqımızın qüdrətini, Azərbaycan əsgərinin silahının gücünü, onun döyüş və mənəvi-psixoloji hazırlığını bir daha nümayiş etdirdi. "Qısa müddətdə həyata keçirilən əks-həmlə nəticəsində işğal altında olan vacib əhəmiyyətə malik yüksəkliklər azad edildi. Bu döyüşlərdə Silahlı Qüvvələrimizin şəxsi heyətinin fəaliyyətinə ən yüksək qiyməti Ali Baş Komandan cənab İlham Əliyev verdi."

Çıxışını gənc zabitlərə müraciətlə davam edən nazir qeyd edib ki, Azərbaycan Ordusunun hər bir zabiti rəhbərlik etdiyi kollektivə şəxsi nümunə olmalıdır. "Silahlı Qüvvələrin hərbi qulluqçusu dövlətə sadiq olmalı, Vətənə və torpağa sevgi, düşmənə nifrət hissi ilə xidmət etməlidir. Dövlətimizin və xalqımızın etimadını doğrultmaq üçün durmadan peşəkarlıq səviyyənizi, bilik və bacarığınızı artıraraq düşməndən üstün olmalı və torpaqlarımızın işğaldan azad edilməsi üçün silahınızı daim hazır saxlamalısınız", - deyə general-polkovnik Zakir Həsənov vurğulayıb.

Müdafiə naziri çıxışının sonunda zabitlərə hərbi xidmətlərində uğurlar arzulayıb və əmin olduğunu bildirib ki, hər bir zabit üzərinə düşən vəzifənin məsuliyyətini dərindən dərk edərək Vətənimizin müdafiə qabiliyyətinin daha da güclənməsinə dəyərli töhfələr verəcəkdir.

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin məzunları adından çıxış edən leytenant Rəşad Cəlalov təhsil müddətində dəyərli hərbi vərdişlərə yiyələndiklərini qeyd edərək qarşıya qoyulan tapşırıqları əzmlə yerinə yetirəcəklərinə söz verib.

Görüşün sonunda şəxsi heyət Silahlı Qüvvələrin Baş Qərargahının binasında ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən muzeyi ziyarət edib, eləcə də xidməti otaqlarda yaradılan şərait və Mərkəzi Komanda Məntəqəsi ilə tanış olub.



**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

AZƏRBAYCAN ORDUSU

# Hərbi hissələrimizdə "Açıq qapı" günü keçirilib

***Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, iyunun 26-da Silahlı Qüvvələr Günü münasibətilə bütün hərbi hissələrdə əsgər valideynləri və yaxınları üçün "Açıq qapı" günü keçirilib. Tədbirlərdə öncə ümummilli liderimiz Heydər Əliyevin və torpaqlarımız uğrunda şəhid olanların ruhu bir dəqiqəlik sükutla yad edilib və Dövlət himni səsləndirilib.***

***Həmçinin Müdafiə nazirinin şəxsi heyətə təbrik məktubu oxunub, xidmətdə fərqlənənlər mükafatdandırılıb.***



Cəbhə bölgəsində yerləşən hərbi hissənin ərazisi bayramsayağı bəzədilmişdi. Havanın isti keçəcəyini nəzərə alan komandanlıq şəxsi heyətin və qonaqların başı üzərində xüsusi komuflyaj materialdan örtük açmışdı. Səliqəli və şux duruşlu bölmələr meydançada tribuna ilə üzbəüz səf-səf düzülmüşdülər. Onların yanında isə hərbçilərimizin sərəncamında olan döyüş texnikası, artilleriya qurğuları cərgə ilə saxlanmış, silah və sursatlar qoyulmuşdu.

Valideynlərlə yanaşı, şəhid ailələrinin, dövlət təşkilatlarının, ictimai birliklərin nümayəndələri, Qarabağ müharibəsi veteranları, Füzuli Dövlət Dram Teatrının kollektivi əsgərlərimizlə görüşə gəlmişdilər.

Tədbirdə Dövlət himnimiz səsləndiriləndə qürurverici idi ki, hərbi qulluqçularla bərabər valideynlər, digər qonaqlar da əllərini ürəklərinin üstünə qoyub İstiqlal marşımızı bir ağızdan oxumağa başladılar. Bu, insanların Vətən sevgisinin bariz ifadəsi idi.

Hər bir hərbi qulluqçuya möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və şərəfli xidmətlərində müvəffəqiyyətlər arzulanan Mudafiə nazirinin təbrik məktubunda cəbhə bölgəsində apreldə baş vermiş qarşıdurmaya verilən qiymət də maraqlı və diqqətəlayiqdir: "Ordumuz aprelin əvvəllərində düşmən təxribatlarının qarşısını layiqincə aldı. Azərbaycan əsgəri doğma torpaqlarını necə müdafiə etdiyini, Vətən uğrunda son damla qanınadək vuruşmağı bacardığını və düşməndən üstün olduğunu bütün dünyaya sübut etdi."

Xoşdur ki, həmin unudulmaz günlərdə bu hərbi hissənin şəxsi heyəti də işğal edilmiş torpaqlarımızın bir qismini düşməndən azad edib, yenidən Vətənin ağuşuna qaytarılmış yüksəkliklərdə əzəmətli Azərbaycan bayrağını dalğalandırmışdı. Şükür Həmidov, Vilayət Quliyev, Nemət Məmmədov, Seymur Həbibullahov kimi zabitlər bu döyüşlərdə şəxsi şücaət və nümunə göstəriblər.

General-mayor Mais Bərxudarov, zabitlərdən Şükür Həmidov, Nemət Məmmədov, Füzuli rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev, "Xocalı soyqırımını tanıtma" İctimai Birliyinin rəhbəri Şamil Sabiroğlu, hərbi hissənin yaradıldığı ilk günlərdən Vətənin müdafiəsində iştirak etmiş, ehtiyatda olan zabit Muxtar Haşımov və başqaları çıxış edərək Silahlı Qüvvələrimizin keçdiyi döyüş yolundan, ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra baş vermiş dəyişikliklərdən, böyük öndərin layiqli davamçısı Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi illərdə ordumuzun qazandığı nailiyyətlərdən danışıblar və hərbi hissənin kollektivinə ürək sözlərini çatdırıblar.

Qonaqlara hərbi hissənin meydançasında cərgə ilə düzülmüş döyüş texnikası, müasir artilleriya və atıcı silahları nümayiş etdirilib.

Təbii ki, əsgərlərin valideynlərini, yaxınlarını və digər qonaqları şəxsi heyətin məişət şəraiti, gərgin xidmət vaxtından sonra istirahəti, qidalanması da maraqlandırırdı. Hərbi hissə komandanlığı bu məqamı nəzərə almışdı və ziyarətçilər hərbi hissənin yataqxanası, məişət otaqları, yeməkxanası ilə yaxından tanış olublar.

Əməkdar mədəniyyət xadimi Vaqif Vəliyevin rəhbərlik etdiyi Füzuli Dövlət Dram Teatrının bədii kollektivi şəxsi heyət qarşısında maraqlı konsert proqramı ilə çıxış edib.

* * *

Hava hücumundan müdafiə təyinatlı "N" hərbi hissəsində "Açıq qapı" günü əsl bayram şəraitində keçirilib.

Tədbirdə ictimaiyyət nümayəndələri və əsgər valideynləri iştirak ediblər. Kürdəmir rayon İcra Hakimiyyəti başçısının müavini Vəsilə Ələsgərli, zabitlərdən Cərullah Ağayev, Azər Yaqubov və başqaları çıxış edərək Azərbaycanda Silahlı Qüvvələr Gününün ümumxalq bayramına çevrildiyini bildiriblər. Qeyd edilib ki, əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycan Ordusu qısa zaman ərzində sürətli inkişaf yolu keçib.

Hərbi hissədə əsgərlərin xidməti üçün yaradılan yüksək məişət şəraiti ilə tanış olan tədbir iştirakçıları hava hücumundan müdafiə təyinatlı müasir döyüş texnikalarına baxış keçiriblər.

Əsgər yeməkxanasında bayram naharı təşkil edilib və qonaqlar əsgərlərlə bir süfrəyə əyləşiblər.

Lənkərandan gəlmiş Fuad Hətəmli və Xaçmaz rayon sakini Radik Abasquliyev əsgər valideynləri adından danışaraq yaradılan müasir şəraitə görə dövlətimizə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

* * *

Hərbi Dəniz Qüvvələrində də "Açıq qapı" günü keçirilib...

Bir plakat diqqəti çəkir. Ulu öndərimiz Heydər Əliyevin kəlamlarındandı: "Xalqla ordunun birliyi həm xalqın qüdrətini, həm ölkənin qüdrətini artırır, həm də ordunu daha da qüvvətli edir. Ona görə də qarşımızda duran əsas vəzifələrdən biri xalqla ordunun sağlam mənəvi birliyini təmin etməkdir"...

Cəmiyyətlə ordu arasında münasibətləri daha da möhkəmləndirməyə xidmət edən bu tədbir həm də böyük bir inama söykənir. İnsanlar cəmiyyətin tərkib hissəsi olan ordu ilə daha yaxından tanış olur, təəssüratları ümidlərini, inamlarını kükrədir, bu inam işğal olunmuş torpaqlarımızda qələbəyə aparacaq yolu nurlandırır.

Tədbir bir azdan başlayacaq. Valideynlərlə söhbətləşirəm.

Lerikdən gəlmiş Nazim Zeynalov deyir ki, böyük oğlu hərbi xidmətini başa vurub. "Hərbi xidmət xatirələri qardaşı Vasifi həmişə həyəcanlandırırdı. Səmimiyyətimə inanın, Vasif hərbi xidmətə gedəcəyi günü səbirsizliklə gözləyirdi. İndi hərbi xidmətdədir, matrosdur. Mən oğlumla qürur duyuram. Müdafiə nazirinə, Hərbi Dəniz Qüvvələrinin komandanlığına belə möhtəşəm şəraitə görə təşəkkür edirəm. İnanıram ki, oğlum da, onun matros yoldaşları da nümunəvi xidmət edəcəklər.



Ağstafadan gəlmiş İlham Alıyev də, Qubadan gəlmiş Nəzakət Qurbanova da, ... bu tədbirə görə Müdafiə nazirinə, Hərbi Dəniz Qüvvələrinin komandanlığına minnətdarlıqlarını bildirirlər...

Havada yağış qoxusu yoxdu. Yağış vaxtında yağacaq...

Hərbi Dəniz Qüvvələrində istifadə edilən silah-sursatlar, avadanlıqlar, geyimlər... nümayiş etdirilir. Valideynlər göstərilənlərə maraqla baxırlar.

1-ci dərəcəli kapitan Natiq Bağırov "Açıq qapı" gününün cəmiyyət və ordu münasibətlərinin daha da möhkəmləndirilməsində rolundan söz açaraq deyir:

\- Silahlı Qüvvələrimizdə son vaxtlar həyata keçirilən islahatlar Hərbi Dəniz Qüvvələrində də həm döyüş, həm də mənəvi-psixoloji hazırlığın yüksəlişinə səbəb olub. Şəxsi heyətimiz Ali Baş Komandanın istənilən əmrini yerinə yetirməyə hazırdır. Aprel döyüşləri təsdiqlədi ki, ordu xalqın, xalq ordunun dayağıdır, Azərbaycan Ordusu torpaqlarımızın işğaldan azad etməyə qadirdir. Müdafiə nazirinin əmriylə ənənəvi olaraq keçirilən "Açıq qapı" günü də bu dönməz birliyin təsdiqidir..

Sonra digər çıxış edənlər valideynlərə, ictimaiyyətin nümayəndələrinə Hərbi Dəniz Qüvvələrimizin tarixindən qısa məlumat verirlər...

Valideynlər də, ictimaiyyətin nümayəndələri də matrosların məişət şəraiti ilə yaxından tanış olurlar...

Valideynlərdən biri fərəhlə, sevinclə həmsöhbətinə "Yanvarda da gəlmişdim. Bu altı ayda hər şey yaxşılığa doğru çox dəyişib. Bu dəyişiklik adama könül xoşluğu verir. Əminəm ki, oğullarımız da, onun matros yoldaşları da nümunəvi xidmət edəcəklər", - deyir. Bu kəlmələri ümumən valideynlərin rəyi hesab edirəm...

* * *



Səhərin erkən saatlarından "N" hərbi hissəsinin nəzarətburaxılış məntəqəsinin qarşısında respublikamızın müxtəlif guşələrindən gəlmiş əsgər valideynləri və yaxınları toplaşmışdılar. Onlar hərbi hissənin ərazisinə daxil olurlar. Burada yüksək ehtiram və səmimiyyətlə qarşılanırlar.

Tədbirdə hərbi hissənin şəxsi heyəti, Sumqayıt şəhər ictimaiyyətinin nümayəndələri, əsgər valideynləri və yaxınları iştirak etdilər.

İlk öncə ümummilli liderimiz Heydər Əliyevin abidəsi ziyarət olundu. Tədbir iştirakçıları abidənin önünə gül dəstələri qoyaraq ulu öndərin xatirəsini ehtiramla yad etdilər.

Ölkəmizin Prezidenti, Ali Baş Komandan İlham Əliyevin, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təbriklərini polkovnik Elşad Əbilov səsləndirərək əlamətdar vaxtda keçirilən "Açıq qapı" günü tədbirinə gələnləri salamladı. Bildirdi ki, belə tədbirlər xalqla ordu arasında körpü rolunu oynayır.

Sumqayıt şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov çıxışında 26 İyun - Silahlı Qüvvələr Günü münasibəti ilə əsgər və zabit heyətini təbrik etdi.

**(Ardı 7-ci səhifədə)**

# Hərbi hissələrimizdə“Açıq qapı” günü keçirilib

(Əvvəli 6-cı səhifədə)

- Xalqla ordunun birliyi həm xalqın qüdrətini artırır, həm də ordunu daha qüvvətli edir, - icra başçısı deyib. - Bu gün biz dövlətimizin əsgərinə yaratdığı şəraitlə tanış olarkən sevincdən ürəyimiz dağa döndü. Ordumuzda böyük islahatlar aparılıb. Bizim güclü, müasir texnikalarla təchiz edilmiş qüdrətli ordumuz var. Aprelin əvvəllərində baş verən hadisələr zamanı biz bir daha bunun şahidi olduq. İnanırıq ki, çox yaxın zamanda işğalda olan ərazilərimiz azad ediləcək, soydaşlarımız öz ata-baba yurdlarına qayıdacaqlar. Qələbə çox yaxındadır."



Ziyarətçilər üçün hərbi hissədə şəxsi heyətin sosial-məişət şəraiti ilə yaxından tanış olmaq, xidməti binalara, eləcə də əsgər yataqxanasına və yeməkxanasına baş çəkmək imkanı yaradılmışdı.

Sıra meydanında hərbi texnikalar bir xətt boyunca yerləşdirilib. Digər tərəfdə isə silahlar, əsgərlərin geyim ləvazimatları, gündəlik qida rasionuna daxil olan ərzaq çeşidləri stolların üzərinə düzülüb.

Hərbi hissə ilə tanışlıq zamanı əsgər valideynləri və yaxınlarına xidmət şəraiti, əsgərlərin gündəlik yaşam tərzi, qida rasionu barədə ətraflı məlumat verildi, onları maraqlandıran suallar cavablandırıldı.

Əsgər valideynlərinə yaxınlaşaraq onların "Açıq qapı" günü ilə bağlı təəssüratlarını öyrənirəm. Ədalət İbrahimov Tərtər rayon sakinidir. Övladı Aqif Rəhmanzadə altı aydır Vətənə müqəddəs borcunu verir. Bu əlamətdar gündə Aqifin anası Ləyaqət xanım, əmisi Mahir də iştirak edirdi. Onlar hərbi hissə ilə tanışlıqdan, əsgərlərimizin belə bir şəraitdə qulluq etməsindən çox razı qaldıqlarını bildirdilər.



Yunis İsmayılov Gəncə şəhərindən gəlib. Oğlu Elvin bir ildir ki, xidmət edir. Keçən "Açıq qapı" günündə də iştirak edib. Valideyn deyir ki, sağ olsun möhtərəm Prezidentimiz İlham Əliyev. "Onun qayğısı nəticəsində ordumuz günügündən güclənir. Əsgərlərimizin şəraitinə baxanda adamın ürəyi açılır.”

Sumqayit şəhər Mədəniyyət və Turizim İdarəsinin təşkil etdiyi konsert proqramında əməkdar artist Rauf Ağakişiyev, Habil Laçınlı, Namiq Məna, Leyla Məmmədova və başqaları əsgərlərə xoş ovqat bəxş etdilər.

* * *

"Açıq qapı" günündə iştirak edəcək əsgər valideynləri, yaxınları və ictimaiyyət nümayəndələri səhər saatlarından hərbi hissələrin nəzarət-buraxılış məntəqələrinin önünə toplaşmışdılar. Cəbhə bölgəsində yerləşən "N" hərbi hissəsində də eyni mənzərənin şahidi oluruq. Hərbi hissənin yaşıllığa qərq olmuş ərazisində təmizlik və səliqə-sahman göz oxşayır. Göy, qırmızı, yaşıl rəngli bayraqların yaratdığı mənzərə hər kəsin qəlbini dağa döndərirdi.

Tədbirdə öncə general-mayor Xaqani Cəbrayılov qonaqları salamlayaraq Silahlı Qüvvələr Günü münasibətilə onları təbrik etdi, müasir ordumuzun banisi ulu öndər Heydər Əliyevin başladığı hərbi quruculuq siyasətinin bu gün ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən, məhz onun diqqət və qayğısının nəticəsi olan aprel qələbələrindən danışdı.

Hərbi hissənin yaranması tarixindən, formalaşması mərhələlərindən ziyarətçilərə ətraflı məlumatlar çatdırıldı. Qonaqlar Heydər Əliyev Mərkəzi və əsgər klubu ilə tanış oldular. Onlar əsgər klubunda Silahlı Qüvvələrimizin tarixini əks etdirən sənədli filmi böyük maraqla izlədilər, hərbi hissənin gündəlik fəaliyyəti, şəxsi heyətin məişət şəraiti və təminatı ilə yaxından tanış oldular.

Sonda ziyarətçilər və ictimaiyyət nümayəndələri əsgər yeməkxanasında təşkil olunan bayram naharına dəvət edildilər.

* * *

Gəncədə yerləşən "N" hərbi hissəsində də əsgər valideynlərinin, yaxınlarının və ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən "Açıq qapı" günü möhtəşəmliyi ilə yaddaqalan olub. Hərbi hissənin geniş meydançası üçrəngli bayraqlarımızla bəzədilib. Ziyarətçilər bayram mərasimini izləmək üçün yerlərini tutublar. Artıq şəxsi heyət də bayram düzülüşünə hazırdı. Bayram mərasiminə fəxri qonaqlar dəvət edilib.

Polkovnik-leytenant Rasim Manafov çıxışında bildirib ki, bu gün ordumuz ən müasir silah və texnika ilə təchiz olunub. “Aprelin əvvəllərində cəbhə xəttində Ermənistan silahlı qüvvələrinin törətdiyi təxribatlara cavab olaraq ordumuzun əməliyyatı nəticəsində qazandığı qələbələr göstərdi ki, düşmən Azərbaycan əsgər və zabitinin gücü qarşısında zəifdir. Ordumuzun döyüş hazırlığı və mənəvi-psixoloji ruhu çox yüksəkdir."

Tədbirdə çıxış edən Gəncə şəhər Veteranlar Şurasının sədri Yusif Məmmədov, 90 yaşlı II Dünya müharibəsi iştirakçısı Tofiq Hüseynov, əmək veteranı Kamal Qurbanov, Azərbaycan Yazıçılar Birliyinin üzvü Solmaz Şəms və başqaları ölkəmizin müdafiə qüdrətindən, əsgər və zabitlərimizin şücaətilə fəxr etdiklərini bildiriblər.

Sonra Gəncə şəhər Mir Cəlal Paşayev adına 39 saylı tam orta məktəbin aşağı sinif şagirdlərinin ifasında hərbi vətənpərvərlik mövzusunda şeirlər səsləndirildi.

Bayram tədbirində Gəncə Musiqi Kollecinin konsert proqramı təqdim edildi.

Əsgər valideynlərinin və yaxınlarının hərbi hissə ilə tanışlığı başlayıb. Onlar ərazidə nümayiş olunan silah və hərbi texnikaya, hərbi nəqliyyat növlərinə, şəxsi heyətin ərzaq, geyim təminatına baxış keçiriblər. Camaşırxanaya, yeməkxanaya və tibb məntəqəsinə baş çəkib bayram naharı ediblər. Əsgər valideynləri hərbi hissədə yaradılan hərtərəfli yüksək şəraitdən razılıqlarını bildiriblər.

* * *

"Açıq qapı" günündə üz tutduğumuz ünvan düşmənlə təmas xəttində oldu. Övladı hərbi xidmətdə olan valideynin özü-özünə verdiyi ilk sual həmişə belə olur: "Görəsən, oğlum necədir?" İndi isə övladı əsgər olan ata-analar belə düşünmürlər. Tez-tez hərbi hissələrin qapıları onların üzünə açılır. Müasir hərbi şəhərciyə daxil olan hər bir valideyn övladı üçün yaradılan şəraitdən son dərəcə məmnun qalır. Əsgər yataqxanasına baş çəkib övladının təmiz çarpayısını görəndə isə ovqatı daha da xoş olur. Eşidəndə ki, naharı əsgər yeməkxanasında övladları ilə birlikdə edəcəklər, eşitdiklərinə inana bilmirdilər.

Əslən Qarabağdan olan Zöhrab İsmayılov deyir ki, doğma Şuşa şəhəri ermənilər tərəfindən işğal olunandan sonra müxtəlif bölgələrdə yaşamağa məcbur olublar. O, ailəsi ilə Ağcabədi şəhərində yaşayır. Yanına gəldiyi əsgər Nicat Əmrahov isə bacısı oğludur. Əsgərin xidmət şəraitindən olduqca məmnun qaldığını bildirən qohum buna görə dövlətimizə və ordu rəhbərliyinə təşəkkür edib.



..."Açıq qapı" gününə həsr edilmiş mərasimi mayor Səməd Məmmədov açıq elan edib. İlk olaraq polkovnik Valeh Rəcəbov çıxış edib. O, dövlətimizin başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin orduya diqqət və qayğısı sayəsində, həmçinin ordu rəhbərliyinin köməyi ilə döyüş və ictimai-siyasi hazırlıqda qazanılan uğurlardan söz açıb. "Bu il aprelin ilk günlərində cəbhədə gedən döyüşlərdə ordumuzun əldə etdiyi nailiyyətlər hər bir vətəndaşın sevincinə səbəb oldu. Bu döyüşlər ermənilər üçün dərs idi. Və heç zaman Azərbaycan xalqı öz ərazisindən bir qarış torpaq belə düşmənə verməyəcək."

Çıxış üçün söz Ağdam rayon İcra Hakimiyyəti başçısının müavini, Qarabağ müharibəsi veteranı Arzu Rəhimovaya verildi. Vətənpərvər xanım həmişə əsgərlərin yanında olduğunu və ordumuza güvəndiyini söyləyib. Arzu xanım bildirdi ki, döyüşlər başlasa, ordumuz tarixi qələbə əldə edəcək.

Tədbir Ağdam rayon Mədəniyyət evinin bədii özfəaliyyət kollektivinin vətənpərvərlik mahnıları ilə davam edib. Sonra qonaqlar əsgərlərlə birlikdə nahar ediblər.

* * *

Hərbi Hava Qüvvələrinə məxsus "N" hərbi hissəsində də "Açıq qapı" günü keçirilib.

Səhər hərbi hissənin meydanında bayram ovqatına köklənmiş şəxsi heyət səf-səf düzülmüşdü. Əsgər valideynləri, qonaqlar da burada öz yerlərini tutmuşdular və tədbirin başlanmasını səbirsizliklə gözləyirdilər.

Hərbi hissə komandirinə mərasimlə bağlı məruzə edilir.

Zabit İkram Səfərov şəxsi heyəti və qonaqları salamlayaraq bayram münasibətilə onları səmimi təbrik etdi. Silahlı Qüvvələrimizin keçdiyi inkişaf yoluna nəzər salan zabit son illərdə dövlət rəhbərliyinin diqqət və qayğısı ilə ordu quruculuğu sahəsində qazanılmış uğurlardan söz açdı.

Mingəçevir şəhər İcra Hakimiyyəti başçısının birinci müavini İlham İsmayılov hərbi qulluqçuları Silahlı Qüvvələr Günü münasibətilə təbrik etdi və hərbi xidmətdə fərqlənən hərbi qulluqçuları Mingəçevir şəhər İcra Hakimiyyəti başçısının adından qiymətli hədiyyələrlə mükafatlandırdı.



Mingəçevir şəhər Veteranlar Şurasının sədr müavini Tahir İmanov, Şəhid Ailələri Müdafiə Şurasının sədri İranə Həsənova, Qarabağ müharibəsi əlili Əliağa Bəndəli və digərləri çıxış edərək Silahlı Qüvvələrin güclənməsi üçün dövlətin gördüyü işlərdən və ordumuzun qazandığı nailiyyətlərdən danışdılar, hərbi hissənin şəxsi heyətini bayram münasibətilə təbrik etdilər.

Tədbirin sonunda Mingəçevir şəhər mədəniyyət və turizm şöbəsinin təşkilatçılığı ilə keçirilən bayram konserti hərbçilərin və qonaqların zövqünü oxşadı.

**"Azərbaycan Ordusu"**

# Heydər Əliyev adına Hərbi Lisey kursantlarının buraxılış mərasimi keçirilib





***İyunun 24-də Heydər Əliyev adına Hərbi Liseyin kursantlarının 2016-cı il buraxılışı münasibətilə tədbir keçirilib.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov tədbirdə iştirak edib.

Azərbaycan Respublikası Müdafiə nazirinin müavini, Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə mərasimə hazırlıq barədə raport verib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov kursantları salamlayıb, Heydər Əliyev adına Hərbi Liseyin növbəti buraxılışı münasibətilə liseyin kursant, zabit və müəllim heyətini, eləcə də tədbir iştirakçılarını təbrik edərək deyib: "Hər bir ölkənin müstəqilliyini və dövlətçiliyini təsdiq edən əsas amillərdən biri də onun ordusudur. Bu gün Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında ordu quruculuğu sahəsində ardıcıl tədbirlər görülür. Silahlı Qüvvələrimiz həm güclü maddi-texniki bazaya, həm də peşəkar və vətənpərvər şəxsi heyətə malikdir. Müasir dövrdə ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlərin mühüm bir istiqaməti ixtisaslı kadrların yetişdirilməsi təşkil edir. O ordu güclüdür ki, onun sıralarında peşəkar zabit heyəti var. Zabit heyəti isə öz-özünə formalaşmır. Bu gün biz iftixar hissi ilə deyə bilərik ki, Silahlı Qüvvələrimiz üçün zabit korpusunun formalaşması işinə ulu öndərimizin adını daşıyan hərbi lisey də öz töhfəsini verir. Ötən dövrdə hərbi liseydə möhkəm maddi-texniki baza və nümunəvi hərbi tədris sistemi yaradılmışdır. Bu gün liseyin mindən çox məzunu Azərbaycan Respublikası Silahlı Qüvvələri sıralarında zabit kimi xidmətlərini davam etdirirlər."

Ali Məclisin sədri deyib: "Ümummilli liderimiz Heydər Əliyevin adını daşıyan hərbi liseyin məzunu olmaq böyük məsuliyyət və şərəfdir. Vətənimiz Azərbaycanın gələcək müdafiəçiləri kimi bu şərəfə layiq olmalı, ali hərbi məktəblərdə yaxşı təhsil almalı, hərb sənətinə dərindən yiyələnməli, sədaqətlə xidmət etməlisiniz. Naxçıvan qədim hərb sənəti ənənələrinə malikdir. Əcdadlarımız daim bu torpağı yadelli işğalçılardan qorumuş, mübarizə aparmış, Əlincəqala, Oğlanqala, Qazançıqala kimi əyilməzlik və mübarizlik simvoluna çevrilən müdafiə istehkamları yaratmışlar. Bu torpaq böyük şücaətlər göstərən generallar, hərbi xadimlər yetirmişdir. Onların keçdiyi yol hər bir gənc üçün vətənpərvərlik nümunəsidir. İnanırıq ki, bu gün Heydər Əliyev adına Hərbi Liseyin müdavimləri olan kursantlar şərəfli zabit adını doğruldacaq, torpaqlarımızın müdafiəsində



ayıq-sayıq dayanacaqlar."

Hərbi liseyin rəisi general-mayor Elman Orucov çıxış edərək deyib ki, Ali Məclis sədrinin hərbi liseyin buraxılış tədbirində iştirakı müəllim və zabit heyətinin, kursantların üzərinə böyük məsuliyyət qoyur. Bu məsuliyyəti hiss edən kollektiv öz səylərini tədris prosesinin səviyyəsinin yüksəldilməsinə, hərbi hazırlığın gücləndirilməsinə, kursantlar arasında hərbi intizamın möhkəmləndirilməsinə sərf edirlər. Kursantlar muxtar respublikada keçirilən bilik müsabiqələrində, fənn olimpiadalarında, idman yarışlarında, bədii özfəaliyyət baxış-müsabiqələrində müntəzəm iştirak edərək yüksək nəticələr əldə ediblər. Muxtar respublikanın gəncləri arasında vətənpərvərlik hisslərinin gücləndirilməsinin nəticəsidir ki, 2016-cı ildə 986 nəfər hərbi liseyə qəbul olunmaq üçün müraciət edib. Hazırda liseyin məzunlarından 10-u Rusiya Federasiyasında, 22-si Türkiyə Respublikasında ali hərbi təhsil alır. Bu il isə 205 kursant liseyi bitirir. Hərbi liseyin kollektivi bundan sonra da təhsilin keyfiyyətini yüksəldəcək, savadlı, fiziki cəhətdən hazır və vətənpərvər kursantların yetişdirilməsində öz qüvvə və bacarığını əsirgəməyəcəkdir.

Kursant Həbib Şükürlü çıxış edərək deyib: "Qarşıdakı təhsil illərində Heydər Əliyev adına Hərbi Liseyin adını daim uca tutacaq, yüksək bilik və nizam-intizamla öndə gedəcəyik. Ordumuza bilikli, peşəkar zabitlər lazımdır. Bu məqsədə nail olmaq üçün əzmlə çalışacaq, ən əsası isə Vətənimizə layiqli övlad olaraq, peşəkar zabit kimi ölkəmizin ərazi bütövlüyünün müdafiəsi naminə bütün qüvvəmizi səfərbər edəcəyik. Vətəni qorumaq, onu yağı düşmənin tapdağına verməmək üçün ordular yaranıb, bu ordulara başçılıq edən sərkərdələr isə öz şücaətləri ilə tarixin yaddaşına köçüblər. Bu mənada hərbi lisey bizim gələcəyin zabiti, Vətən müdafiəçisi kimi formalaşmağımızda mühüm rol oynadı. Əmin edirik ki, and yerimiz Vətən bizim kimi oğulların çiynində daim yüksələcəkdir:

*Tanrım verən ömür*
*sənindi, Vətən,*
*Sinənə daş dəysə,*
*dağ-dağ olaram!*
*İrili-xırdalı yaralarına*
*Sarğı əvəzinə*
*yarpaq olaram!*
*Bayrağın bir daha*
*göylərdən enməz,*
*Güvəndiyin əsgər*
*yolundan dönməz.*
*Kölgəndə yağılar*
*kölgələnəmməz,*
*Sərhəd dirəyinə*
*bayraq olaram!"*

Valideynlər adından danışan Rahib Əhmədov deyib ki, bu gün Heydər Əliyev adına Hərbi Liseydə yüzlərlə gənc təhsil alır, hərbi vətənpərvərlik ruhunda tərbiyə olunurlar. "Artıq Heydər Əliyev adına Hərbi Lisey mətinlik məktəbinə çevrilib. Xoşbəxtəm ki, mənim övladım da bu peşəni seçib, Heydər Əliyev adına Hərbi Liseyi bitirərək ali hərbi məktəbə daxil olub."

Rahib Əhmədov ölkəmizdə gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi sahəsində həyata keçirilən tədbirlərə görə valideynlər adından minnətdarlıq edib.

Sonra Ali Məclisin sədri liseyin əlaçı kursantlarına attestatları təqdim edib, zabit, müəllim və kursantları mükafatlandırıb.

Kursant Məhəmməd İsmayılzadə təhsil ocağının rəmzi kötüyünə xatirə birkasını vurub.

Orkestrin müşayiəti ilə "Hərbi lisey marşı" ifa edilib, şəxsi heyət təntənəli marşın sədaları altında nizami addımlarla tribunanın önündən keçib.

Liseyin müəllimləri ilə görüşən Ali Məclisin sədri deyib ki, hərbi liseydə Vətənimizin gələcək müdafiəçiləri hazırlanır. "Ona görə də hər il Heydər Əliyev adına Hərbi Lisey kursantlarının buraxılış mərasimi muxtar respublikada əlamətdar gün kimi qeyd olunur. Bu gün lisey müəllimlərinin üzərinə mühüm vəzifələr düşür. Onlar gələcəyin zabitlərini yetişdirirlər. Kursantların gələcək ali hərbi təhsil illərində və xidmət dövründə qazandıqları uğurların təməlində müəllimlərin zəhməti dayanır."

Ali Məclisin sədri liseyin müəllimlərinə təşəkkür edib və onlara gələcək işlərində uğurlar arzulayıb.

Sonra Ali Məclisin sədri ümummilli liderimiz Heydər Əliyevin hərbi liseydəki büstü önündə kursantlarla xatirə şəkli çəkdirib.

Ali Məclisin sədri yeməkxanada olub, kursantların qidalanması ilə maraqlanıb.

Valideyn Rühəngiz Aslanova Ali Məclisin sədrinə minnətdarlıq edərək deyib: "Bu gün hər bir valideyn ölkəmizin inkişafı ilə qürur duyur. Sabitlik və əmin-amanlıq şəraitində yaşayırıq. Xoşbəxtik ki, qüdrətli Azərbaycan dövlətinin vətəndaşlarıyıq. Fəxr edirik ki, övladlarımız Ali Baş Komandan, ölkə Prezidenti cənab İlham Əliyevin əmrlərinə hər an hazır olan müstəqil Azərbaycanın müdafiəçiləri kimi yetişirlər. Hərbi liseydə gənclərin hərtərəfli təhsil alması, Vətənə və xalqa sədaqət ruhunda böyüməsi üçün lazımi şərait vardır. Valideyn olaraq qarşımızda duran əsas vəzifə dövlətimizin yaratdığı bu imkanlardan layiqincə bəhrələnmək, vətənpərvər və ulu öndərimizin ideyalarına sadiq gənclər yetişdirməkdir."

Ali Məclisin sədri liseyin tədris korpusunda olub, yaradılan şəraitlə maraqlanıb.

Qeyd olunub ki, hərbi liseydə tədrisin keyfiyyətinin yüksəldilməsi sahəsində görülən işlər davam etdirilir. Bu il tədris binasında 2 biologiya, 2 informatika, 2 tarix, ingilis dili, riyaziyyat, hərbi-topoqrafiya və ədəbiyyat kabinələri yaradılıb, bütün kabinələr tədris proqramına uyğun avadanlıqlar, stend və elektron dərsliklərlə təmin olunub, idman guşəsi yaradılıb, əlavə 4 elektron lövhə quraşdırılaraq liseydəki elektron lövhələrin sayı 12-yə çatdırılıb. Hazırda elektron lövhələr və internetə çıxışı olan kompüterlər dərslərin interaktiv formada keçirilməsinə və hərbi liseyin muzey şəbəkəsinə qoşulmasına imkan verir, dəqiq elmlər və xarici dillər müasir metodlarla tədris olunur. Həmçinin kursantlarda ilkin peşə vərdişlərinin formalaşdırılması məqsədilə liseyə 3 ədəd pnevmatik atəş silahı alınıb.

Ali Məclisin sədri kursantların təhsilinə və fiziki hazırlıqlarına diqqət yetirilməsi, liseyin elektron dərsliklərlə mütəmadi təmin olunması və tədrisin səviyyəsinin daha da yüksəldilməsi barədə tapşırıqlar verib.

# Naxçıvanda zabit ailələrinə yeni xidməti mənzillər təqdim olunub



*Güclü iqtisadiyyata malik olan ölkəmizdə müasir və qüdrətli milli ordu formalaşıb. Bunun nəticəsidir ki, Naxçıvan Muxtar Respublikasında ordu quruculuğu tədbirləri uğurla davam etdirilir. Muxtar respublikada ordu, birləşmə və hissələrin döyüş qabiliyyəti və maddi-texniki bazası gücləndirilməklə yanaşı, hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsi, mənzil-məişət şəraitinin yaxşılaşdırılması da diqqət mərkəzində saxlanılır. Hər il yeni xidməti yaşayış binaları tikilir, zabit-gizir ailələri mənzillərlə təmin olunurlar.*

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, iyunun 25-də Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü münasibətilə Naxçıvan şəhərində 9 zabit ailəsinə yeni xidməti mənzillər təqdim olunub, hərbi şəhərcikdə yeni park istifadəyə verilib.

Azərbaycan Respublikası Müdafiə nazirinin müavini, Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə raport verib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü və yeni mənzillərlə təmin olunmaları münasibətilə zabit ailələrini təbrik edərək deyib: "Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2016-cı il 24 iyun tarixli sərəncamlarına əsasən, Əlahiddə Ümumqoşun Ordunun 1 hərbi qulluqçusuna ali hərbi rütbə verilmiş, 6 hərbi qulluqçu medallarla təltif olunmuşdur. Silahlı Qüvvələr Günü ərəfəsində muxtar respublikada da bir sıra tədbirlər keçirilmiş, Heydər Əliyev adına Hərbi Lisey kursantlarının buraxılış mərasimi olmuşdur. Bu gün isə 9 zabit ailəsinə yeni xidməti yaşayış mənzilləri təqdim olunur, hərbi şəhərcikdə yeni istirahət parkı istifadəyə verilir."

Ali Məclisin sədri deyib: "Ölkəmizdə ordu quruculuğu sahəsində müxtəlif tədbirlər həyata keçirilir. Bu gün Silahlı Qüvvələrimizin maddi-texniki bazası gücləndirilir, ən müasir silahlarla təmin olunur, hərbi təlimlər keçirilir, şəxsi heyətin döyüş qabiliyyəti artırılır. Digər tərəfdən isə zabit-gizir ailələrinin mənzil-məişət şəraiti yaxşılaşdırılır, onların istirahəti təmin edilir. Bütün bunların nəticəsidir ki, Azərbaycan Respublikası Silahlı Qüvvələri Cənubi Qafqazın ən güclü və qüdrətli ordusuna çevrilmişdir."

Ali Məclisin sədri deyib: "Qüsursuz xidmət edən hərbi qulluqçulara yeni mənzillərin verilməsi, zabit ailələrinin xidməti yaşayış mənzilləri ilə təmin olunması hərbi xidmətin daha rahat təşkilinə şərait yaradır. Çünki zabit ailələrinin rahat yaşayışı, problemlərinin həlli imkan verir ki, onlar xidmətini də nümunəvi təşkil etsinlər. Muxtar respublikada yerləşən ordu, birləşmə və hissələrdə xidmət edən hərbi qulluqçuların mənzil şəraitinin yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır. İstər Naxçıvan şəhərində, istərsə də ən uzaq sərhəd bölgəsində xidmət edən zabitlər, əsgərlər lazımi sosial-məişət şəraiti ilə təmin olunurlar."

Ali Məclisin sədri qeyd edib ki, muxtar respublikamız blokada şəraitində yaşayır, Naxçıvan işğalçı ölkə ilə sərhəddə yerləşir. "Ona görə də ordu quruculuğu sahəsində kompleks tədbirlər görülür, xalq-ordu birliyi möhkəmləndirilir, əlamətdar günlərdə ordumuzla həmrəylik nümayiş etdirilir. Bütün bunların nəticəsidir ki, insanlar ordumuza güvənərək düşmənlə sərhəd yaşayış məntəqələrində rahat yaşayır, təsərrüfatla məşğul olurlar. Ona görə də muxtar respublikada hərbi xidmət bundan sonra da nümunəvi təşkil olunmalıdır. Zabitlər öz xidmətləri ilə seçildikləri kimi, onların ailələri də təqdim olunan xidməti mənzilləri, eləcə də tikilənləri, qurulanları qoruyub saxlamalıdırlar."

Ali Məclisin sədri general-mayor ali hərbi rütbəsini Əlahiddə Ümumqoşun Ordunun zabiti Elxan Əlibəyova təqdim edib, təltif olunan zabitləri və mənzillə təmin olunan ailələri bir daha təbrik edib.

Zabit ailələri adından Şahilə Orucova və Nigar İslamova minnətdarlıq edərək deyiblər ki, ölkəmizdəki inkişaf və tərəqqi hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsinə də səbəb olub. "Bu gün zabit ailələrinin mənzillə təmin olunması bunu bir daha təsdiq edir. Muxtar respublikada bu işlər artıq ənənə halını alıb. Hər il yeni yaşayış binaları tikilərək istifadəyə verilir. Hazırda muxtar respublikamızda zabit ailələrinin rahat yaşaması üçün bütün tədbirlər görülür. Ümummilli liderimiz Heydər Əliyev zabit peşəsini ən şərəfli peşə kimi qiymətləndirirdi. Bu gün onun yolu ölkəmizdə, eləcə də muxtar respublikada uğurla davam etdirilir. Zabitlərin xidmətlərinin nümunəvi təşkili və rahat yaşaması üçün ardıcıl tədbirlər görülür. Hər bir zabit ailəsi dövlətin qayğısını üzərində hiss edir."



Ali Məclisin sədri mənzillərin açarlarını zabit ailələrinə təqdim edib, onlara firavan həyat arzulayıb.

İki və üçotaqlı mənzillərdə bütün kommunal məişət şəraiti yaradılıb, mebel dəstləri qoyulub. Mənzillə təmin olunan zabit ailələrinə xalça hədiyyə olunub.

Sonra Ali Məclisin sədri istirahət parkında yaradılan şəraitlə tanış olub. Muxtar respublikamızda hərbi qulluqçuların məişət şəraitinin yaxşılaşdırılması ilə yanaşı, onların istirahətlərinin mənalı təşkili də diqqət mərkəzində saxlanılır, yeni sosial təyinatlı obyektlər tikilərək istifadəyə verilir. Bu sahədə həyata keçirilən tədbirlərin davamı olaraq Naxçıvan şəhərində yeni istirahət parkı salınıb. 1 hektar sahəni əhatə edən parkda 80 növdən artıq gül kolu və dekorativ ağaclar əkilib, fontan düzəldilib, müasir işıqlandırma sistemləri qurulub. Parkın ərazisində oturacaqlar və şahmat stolları qoyulub, konsert və mədəni-kütləvi tədbirlərin təşkili üçün səhnə yaradılıb.



Tikinti işləri aparılarkən hərbi şəhərcikdəki 6 xidməti yaşayış binası da yenidən qurulub, binaların kommunikasiya xətləri, qapı, pəncərə və dam örtükləri yenilənib.

Ali Məclisin sədri hərbi şəhərcikdə tikinti-quruculuq işlərinin davam etdirilməsi, ərazidə zabit ailələrinin istirahəti üçün bundan sonra da lazımi şəraitin yaradılması barədə tapşırıqlar verib.

# Əsgərlər hərb tariximizə maraq göstərirlər

*Cəbhə bölgəsindəki artilleriya bölmələrindən birində müasir ideoloji mərkəz diqqətimi cəlb etdi. Yüksək tərtibatla hazırlanmış mərkəzdə Azərbaycan Silahlı Qüvvələrinin inkişaf tarixini mərhələ-mərhələ əks etdirən maraqlı eksponatlar göz oxşayır. Gənc artilleriyaçılar asudə vaxtlarını əsasən burada keçirir və doğma ordumuzun dünəni, bu günü ilə bağlı məlumatları öyrənirlər.*



Divizion komandirinin şəxsi heyətlə iş üzrə müavini kapitan Qənbər Orucov söhbətimizdə bildirdi ki, 26 İyun - Silahlı Qüvvələr Günü ərəfəsində əsgərlərlə burada ardıcıl tədbirlər keçirilib. "Həm 1918-20-ci illər Azərbaycan Xalq Cümhuriyyəti dövründə respublikamızda ilk ordu hissələrinin yaranması, həm də ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi müxtəlif tarixi mərhələlərdə ordu quruculuğunu inkişaf etdirmək, xalqımızın hərb ənənələrinin davam etdirilməsi sahəsində həyata keçirdiyi məqsədyönlü islahatlar, həm də müasir dövrdə Azərbaycan Silahlı Qüvvələrinin formalaşması istiqamətində görülən işlər barədə əsgərlərimizi hərtərəfli məlumatlandırmağa çalışırıq. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin son illər cəbhə xəttinə səfərləri, aprel döyüşlərində fədakarlıq göstərmiş hərbi qulluqçuları mükafatlandırması ilə bağlı foto-stendlər də şəxsi heyətin marağına səbəb olur."

Söhbətləşdiyimiz əsgərlər doğma Vətənin hərb tarixinə böyük maraq göstərdiklərini qeyd etdilər.

**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# Silahlı Qüvvələr gününə həsr edilmuş tədbirlər

***26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə Müdafiə Nazirliyinin tabeliyində olan birlik, birləşmə, hərbi hissə, Əlahiddə Ümumqoşun Ordu, Hərbi Hava Qüvvələri və Hərbi Dəniz Qüvvələri, o cümlədən xüsusi təyinatlı təhsil müəssisələrində silsilə tədbirlər keçirilib. Müdafiə nazirinin göstərişinə əsasən, təsdiq olunmuş plan üzrə bayramla əlaqədar tarixçi alimlərin, millət vəkillərinin və digər ictimaiyyət nümayəndələrinin iştirakı ilə dəyirmi masalar, veteranların hərbi hissələrə səfərləri, muzey və abidələrə ekskursiyalar təşkil edilib, eləcə də müxtəlif bayram konsertləri, viktorinalar, mədəni-kütləvi vətənpərvərlik və idman tədbirləri keçirilib.***





Müdafiə nazirinin təsdiq etdiyi tədbirlər planına uyğun olaraq, Hərbi Dəniz Qüvvələrində Silahlı Qüvvələr Günü qeyd olunub.

Şəxsi heyətin iştirakı ilə keçirilən bayram tədbiri çərçivəsində hərbi qulluqçuların bir qrupunun Silahlı Qüvvələrin Hərb Tarixi Muzeyinə ekskursiyası təşkil olunub.

Bayram ərəfəsində HDQ-nin Həmkarlar İttifaqı ilə birlikdə şəhid ailələri, müharibə və Silahlı Qüvvələr veteranları ilə görüşlər keçirilib.

Azərbaycan Respublikasının əməkdar artisti Tünzalə Ağayeva, gənc müğənnilər Samirə Əfəndiyeva və Ramail Bayramlı, eləcə də Bakı Xoreoqrafiya Akademiyasının tələbələri Hərbi Dəniz Qüvvələrinin şəxsi heyəti qarşısında konsert proqramları ilə çıxış ediblər.

* * *

Naxçıvan şəhərindəki "N" hərbi hissəsində Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 98-ci ildönümü münasibətilə bayram tədbiri keçirilib.

Tədbirdə çıxış edən Əlahiddə Ümumqoşun Ordunun zabiti Mirqiyas Rüstəmov tədbir iştirakçılarını 26 İyun - Azərbaycan Silahlı Qüvvələri Günü münasibətilə təbrik edib, ordunun xalqın dayağı, döyünən ürəyi olduğunu bildirib.

Mirqiyas Rüstəmov deyib ki, əgər dövlətin ordusu güclüdürsə, həmin dövlət regionda söz sahibi kimi çıxış edə, özünün milli mənafelərini inamla qoruya bilər. Azərbaycan Silahlı Qüvvələrinin yarandığı gündən indiyədək şərəfli və keşməkeşli yol keçdiyini deyən natiq, bu gün Silahlı Qüvvələrimizin dünyanın sayılıb-seçilən ordularından olduğunu qeyd edib. O bildirib ki, bu il aprelin əvvəllərində Azərbaycan Silahlı Qüvvələri düşmən təxribatının qarşısını almaqla yanaşı, ona sarsıdıcı əks-zərbə vuraraq zəfər qazanıb, nəyə qadir olduğunu bir daha sübuta yetirib. "Bununla da düşmən Azərbaycan Ordusu qarşısında nə qədər gücsüz və aciz olduğunu anlayıb."

Azərbaycan Respublikasının xalq artisti Kamran Quliyev 26 İyun - Azərbaycan Silahlı Qüvvələri Günü münasibətilə Vətənin müdafiəsində igidlik və mətinliklə dayanan bütün hərbi qulluqçuları təbrik edərək, onlara çətin və şərəfli işlərində uğurlar arzulayıb. Kamran Quliyev deyib ki, 98 il bundan əvvəl yaranan Milli Ordumuz bu gün özünün gücü və qüdrəti ilə seçilir. Bu, hər bir vətənpərvər insanda qürur, fəxarət hissi yaradır.

Tədbirin bədii hissəsində Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblının ifasında səsləndirilən musiqi nömrələri, Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının yaradıcı kollektivinin çıxışları əsgərlərimiz tərəfindən maraqla qarşılanıb.

Hərbçilərimizin nümunəvi çıxışları tədbir iştirakçılarının alqışları ilə müşayiət olunub.

* * *

Azərbaycan Hərb Tarixi Muzeyində Silahlı Qüvvələrimizin yaradılmasının 98 illiyinə həsr olunmuş "Ordumuz qürurumuzdur" mövzusunda tədbir keçirilib. Tədbirdə Müdafiə Nazirliyinin, xüsusi təyinatlı təhsil müəssisələrinin, veteran təşkilatlarının və ictimaiyyətin nümayəndələri iştirak ediblər.



Əvvəlcə ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olan həmvətənlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Dövlət himni səsləndirilib.

Muzeyin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadə tədbiri açıq elan edib və geniş məruzə ilə çıxış edib. O qeyd edib ki, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasından bir müddət sonra - 1918-ci ilin 26 iyununda Əlahiddə Azərbaycan Korpusunun yaradılması ilə təməli qoyulmuş müasir Azərbaycan Silahlı Qüvvələri çətin, əzablı, amma şərəfli bir inkişaf yolu keçmişdir. "Silahlı Qüvvələrin yaradılması müstəqil Azərbaycanın dövlət quruculuğunun mühüm nailiyyətlərindən biridir. Ölkə müstəqilliyini yenidən bərpa edəndə doğma ordumuzun yaradılması zərurəti yarandı. Respublika Ali Sovetinin 1991-ci il avqustun 30-da keçirilən iclasında "Özünümüdafiə qüvvələrinin yaradılması haqqında" qərar qəbul edildi. Beləliklə, bu qərar Azərbaycanda dövlət sturkturu kimi ordu təşkilinin əsasını qoydu", - deyə natiq bildirdi və qeyd etdi ki, xalqın təkidli tələbi ilə yenidən ikinci dəfə hakimiyyətə qayıdan Heydər Əliyevin 1993-cü il noyabrın 2-də ölkə vətəndaşlarına müraciəti müasir ordu quruculuğu sahəsində əsaslı dönüşün başlanğıcı oldu. "Ölkə rəhbərinin çağırışına cavab olaraq minlərlə azərbaycanlı gənc könüllü surətdə silaha sarılıb doğma torpaqlarımızın düşmən işğalından xilası naminə döyüşə atıldı. Ulu öndəriin bir-birinin ardınca imzaladığı sənədlər ordu quruculuğuna güclü təkan verdi. Ordunun maddi-texniki təminatı xeyli gücləndirildi. Bu gün Azərbaycan Ordusunda çalışan zabitlərin əksəriyyəti məhz ulu öndərin qayğısı sayəsində Türkiyənin, Rusiyanın, Ukraynanın, Pakistanın, Çinin, İtaliyanın, Rumınıyanın və digər ölkələrin akademiyalarında təhsil almışlar. Bundan başqa, ulu öndərin uzaqgörən siyasəti sayəsində respublikamız 1994-cü ilin mayında NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramına qoşuldu və 1999-cu il fevralın 20-də isə Azərbaycan Silahlı Qüvvələrin Hərbi Akademiyasının yaradılması barədə fərman imzalandı. Bütün bu tədbirlər nəticəsində müasir Azərbaycan Ordusunun bazası yaradıldı."



Məruzədə qeyd olunub ki, bu gün Azərbaycanın qüdrətli ordusu var. "İşğal olunmuş Azərbaycan torpaqlarının düşməndən azad edilməsi üçün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun komandanlığı ilə ordumuzun potensial imkanlarının genişləndirilməsi, daha güclü və müasir silahlarla təchiz edilməsi və peşəkar hərbi kadrların hazırlanması sahəsində gərgin və səmərəli iş aparılmaqdadır. Son illər döyüş təcrübəsinin artırılması sahəsində həyata keçirilən təlimlər və apreldə düşmən üzərində qazanılan qələbələr torpaqlarımızın tez bir zamanda düşmən tapdağından azad ediləcəyinə sübutdur".

Muzeyin elmi işlər üzrə rəis müavini Hacı Həsənov da ordu quruculuğu tarixindən bəhs edən məruzə ilə çıxış edib. O, çıxışında vurğulayıb ki, Silahlı Qüvvələrimiz son illərdə regionda öz sözünü deməyə qadir olan ən qüdrətli hərbi gücdür.

Tədbirdə Silahlı Qüvvələr Gününə həsr olunmuş sənədli film nümayiş olunub.

Sonda estradamızın müğənniləri Nadiq Qafarzadə, Ceyhun Bakınski, Nicat Cəfərzadə, Fuad Musayev və başqaları öz ifaları ilə hərbçilərimizi təbrik ediblər.

**"Azərbaycan Ordusu"**

# "Ordumuz - qürurumuz"





***Müdafiə Nazirliyinin və Xocavənd rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə 26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə "Ordumuz - qürurumuz" adlı kütləvi hərbi vətənpərvərlik tədbiri keçirilib.***

AZƏRTAC xəbər verir ki, xocavəndli məcburi köçkünlərin məskunlaşdıqları Beyləqan rayonu ərazisindəki Xocavənd qəsəbəsində keçirilən tədbirdə hərbçilər, Qarabağ müharibəsi veteranları, şəhid ailələri, ictimaiyyət nümayəndələri və gənclər iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin Xocavənd qəsəbəsindəki abidəsi önünə gül dəstələri düzərək dahi rəhbərin xatirəsinə ehtiramlarını bildiriblər. Mərasimdə Azərbaycanın Dövlət himni səsləndirilib, ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Müdafiə Nazirliyinin zabiti, əməkdar incəsənət xadimi Abdulla Qurbani Müdafiə nazirinin təbrikini tədbir iştirakçılarına çatdırıb. O, aprelin əvvəllərində erməni işğalçılarının cəbhədə törətdiyi təxribatlara Azərbaycan Ordusunun verdiyi layiqli cavabdan, düşmənin canlı qüvvəsi və hərbi texnikasının darmadağın edilməsindən, mühüm əhəmiyyətə malik bir neçə yüksəkliyin azad olunmasından, hərbçilərimizin döyüş meydanında göstərdiyi şücaətdən fəxarətlə danışıb. Bildirib ki, ordumuzun bu uğuru xalqımızda tezliklə Qarabağın azad olunacağına böyük inam yaradıb.

Xocavənd rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov çıxış edərək Silahlı Qüvvələr Günü münasibətilə tədbir iştirakçılarını, hərbi qulluqçuları təbrik edib, Azərbaycan Ordusunun yaranma tarixindən, ümummilli lider Heydər Əliyevin ordunun formalaşmasında və gücləndirilməsində xidmətlərindən danışıb, ulu öndərin ordu quruculuğu sahəsindəki siyasətinin bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb.



Tədbirdə çıxış edən Füzuli rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev xalqın işğal altında olan torpaqlarımızın azadlığı üçün Ali Baş Komandanın əmrinə hər an hazır olduğunu bildirib və ordu ilə xalqın birliyini qeyd edib.

General-mayor Mais Bərxudarov orduya göstərdiyi diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlığını bildirib. Vurğulayıb ki, Azərbaycan Ordusu düşmənin bütün təxribatlarının qarşısını qətiyyətlə alır, torpaqlarımızın və xalqımızın müdafiəsində əzmlə dayanıb və işğal altında olan torpaqlarımızı Ali Baş Komandanın əmri ilə qısa zamanda azad etməyə hazırdır.

Tədbirdə Xocavənd, Füzuli, Beyləqan uğrunda gedən döyüşlərdə fərqlənən Qarabağ müharibəsi veteranlarına, şəhid ailələrinə, əsgərlərə və zabitlərə fəxri fərman və xatirə hədiyyələri verilib.

Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblının, tanınmış incəsənət ustalarının iştirakı ilə təqdim olunan hərbi vətənpərvərlik mövzusunda mahnılar və rəqslər tamaşaçılarda yüksək əhval-ruhiyyə yaradıb, qələbəyə inam hissini daha da artırıb.

# "Azərbaycan Ordusu xalqın bağrından qopan gücdür"

***Bu günlərdə cəbhə xəttində ezamiyyətdə olduğum zaman bir qrup ictimaiyyət nümayəndəsinin hərbi hissədə əsgərlərlə keçirdiyi görüşdə iştirak etdim. Burada "Azərkimya" İstehsalat Birliyi Müşahidə Şurasının sədri, millət vəkili Muxtar Babayevdən qəzetimiz üçün qısa müsahibə aldım. Əsas məqsədim ordumuzun bugünkü vəziyyəti və şəxsi heyətin döyüş ruhu ilə bağlı Müxtar müəllimin təəssüratlarını öyrənmək idi.***



- Əvvəla sonsuz dərəcədə qürurluyam ki, kimyaçılar kollektivinin üzvləri və deputat həmkarlarımla əsgərlərimizin görüşünə əlamətdar bir vaxtda - Silahlı Qüvələrimizin yaradılmasının 98-ci ildönümü ərəfəsində gəlmişəm, - deyə müsahibim söhbətə başladı. - Bizimlə birgə sənət adamları, ziyalılar və tələbələr də bu səfərdə iştirak edirlər. Hərbi hissədə gördüklərimdən çox fərəhliyəm, inanın, sevincim yerə-göyə sığmır. Dövlətimizin rəhbərliyinə, şəxsən Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyevə minnətdaram ki, düşmənlə təmas xəttində yerləşən hərbi hissələrdə yüksək məişət şəraiti yaradılıb. Əsgər yataqxanasına baş çəkdik, tərtəmiz yataq dəstləri, səliqə-sahman ürəyimizdən oldu. Valideynlər əmin ola bilərlər ki, əsgər övladları öz evlərində olduğu kimi, təmiz şəraitdə dincəlirlər. Sonra əsgər yeməkxanasında şəxsi heyətin naharına qonaq olduq. Peşəkar qadın aşpazların hazırladıqları xörəklər dadlı idi, süfrəyə salat və şirə də verilmişdi. Əsgərlərlə bir süfrədə çörək kəsmək mənə könül xoşluğu verdi, fürsətdən yararlanıb onlarla səmimi söhbət apardım.



Hər kəs hərbi xidmətindən, yaradılan yüksək məişət şəraitindən, qidaların keyfiyyətindən razılıq etdi.

Millət vəkili söhbətində aprel hadisələrindən danışdı və bildirdi ki, qısa döyüş əməliyyatlarında Azərbaycan əsgərinin möhtəşəm uğurları cəmiyyətdə böyük ruh yüksəkliyi yaradıb. "İndi haraya getsək, kiminlə söhbət etsək, aprel zəfərindən qürurla danışacaq. Danışmağa haqqımız da var, çünki Silahlı Qüvvələrimizin cəbhə xəttindəki döyüş bölmələri, doğrudan da, möhtəşəm uğurlara imza atıb. Bir neçə yüksəklikdə dalğalanan üçrəngli bayrağımızın rəmzi mənası çox böyükdür. Bu hadisə təkcə Azərbaycan xalqına yox, bütün beynəlxalq ictimaiyyətə sübut etdi ki, ordumuz ərazi bütövlüyümüzü təmin etməyə tam qadirdir. Əlbəttə, münaqişənin həllində dövlətimizin mövqeyi də birmənalı olaraq dəstəklənir, yəni Azərbaycan bəşəri dəyərlərə, sülhə, əmin-amanlığa dəyər verir və son anadək torpaqlarımızın dinc yolla qaytarılmasına səy göstərir. Amma Prezidentimizin dəfələrlə qeyd etdiyi kimi, Azərbaycan xalqının səbri tükənməz deyil, sülh danışıqları bir nəticə verməzsə, onda ordumuz öz sözünü qətiyyətlə deyəcəkdir."

Həmsöhbətimə görə, ordunun döyüş qabiliyyətinin güclənməsində mühüm amillər sırasında ordu ilə xalqın sarsılmaz birliyi xüsusi qeyd edilməlidir. "Fikrimcə, atəşkəsdən ötən illər ərzində indiki əhval-ruhiyyənin şahidi olmamışdıq. Azərbaycan əsgəri ona görə qüdrətlidir ki, güclü dövlətimizə və qədirbilən xalqımıza güvənir. Doğma ordumuz xalqın bağrından qopan gücdür, əsgər və zabitlərin döyüş ruhu onların Vətən sevgisindən yaranır. Vətəni göz bəbəyi kimi qorumağı qarşısına məqsəd qoyan döyüşçü oğulların hesabına suverenliyimiz inamla qorunacaq və ərazi bütövlüyümüz təmin ediləcəkdir."

**Arif VAQİFOĞLU,**
**"Azərbaycan Ordusu"**

### Samir hərbi xidmətdən hansı təəssüratla ayrılacaq?

# “Komandirlərimə minnətdaram”



Gənclər üçün hərbi xidmətin böyük önəmi var. Torpaqlarımızın bir qisminin işğal altında olduğu bir şəraitdə, hərbi xidmət keçməyin vacibliyini dərk edən gənclər Vətən qarşısında borcun öhdəsindən uğurla gəlirlər.

İnsanlarda vətənpərvərlik hissinin formlaşmasında, cəmiyyətə yararlı şəxsiyyət kimi yetişməsində və s. üstün keyfiyyətlərə yiyələnməsində əsgəri xidmətin rolu danılmazdır. Hərbi xidmət dövründə gənclər milli-mənəvi dəyərlərimizə sədaqət ruhunda formalaşır, gələcəyin nümunəvi vətəndaşları kimi yetişirlər. Ordu həyatının gənclərə aşıladığı keyfiyyətləri onların öz dilindən öyrənmək üçün müxtəlif hərbi hissələrdə tərxis olunmağa hazırlaşan əsgərlərlə söhbətləşirəm. Bu dəfəki ezamiyyətimdə də bu mövzuda yazı hazırlamaq qərarına gəldim.

"N" hərbi hissəsinin ön xətdəki bölmələrindən birində manqa komandiri baş çavuş Rafiz Cəfərovla görüşəndə tərxis olunmağa hazırlaşan əsgərlərlə maraqlandım.

- Manqanın nümunəvi əsgərlərindən olan Samir İsmayılov bu gün-sabah ordudan tərxis olunacaq, - dedi çavuş. - Samir xidmətə gəldiyi ilk gündən kollektivdə özünə hörmət qazanıb. Verilən tapşırıqları vaxtında və dəqiq yerinə yetirir. Onun vətənpərvərliyi, xidmətə bağlılığı digər əsgər yoldaşlarına da nümunədir.

Hərbi xidmətinin son günlərini yaşayan əsgər İsmayılov haqqında döyüş yoldaşları da fikirlərini bölüşürlər.

"Orduya gələn gündən Samirdən böyük qardaş münasibəti görmüşəm, daim təcrübəsini mənimlə bölüşüb. O, həm sadiq əsgər yoldaşı, həm də yaxşı dostdur. Samirə gələcək həyatında uğurlar arzulayıram." Bu sözlər əsgər Alxan Hidayətzadəyə məxsusdur.

Sonra əsgər Amin Əmiraslanov Samir haqqında arzularını bildirir:

- Samir əsgəri borcunu şərəflə yerinə yetirib, sağsalamat ailəsinin yanına qayıtdığı üçün bir dost kimi sevinirəm. Bütün əsgər yoldaşlarıma da bu məqamı arzu edirəm. İnanıram ki, Samir cəmiyyətdə özünə layiqli yer tutacaq.

Budur, əsgər Samir İsmayılov döyüş növbəsindən qayıdır. Onu daha yaxından tanıyıram. Xidmətə Şəki rayonundan çağırılıb. Əsgər öz komandirlərinə minnətdarlığı bildirərək deyir:

- Bacarıqlı döyüşçü kimi yetişməyimdə batareya komandirim kapitan Ramiq Bədirov və taqım komandirim leytenant Kamran Alməmmədovun rolu böyükdür. Onların zəhməti nəticəsində minaatan ixtisası üzrə bilik və bacarıqlara yiyələnmişəm.

Xidməti dövrünün ən yaddaqalan günlərindən söhbət açan Samirə görə, əsgəri xidmət gənclərin həyatında mühüm rola malikdir. "Bu şərəfli yolu keçdiyim üçün çox sevinirəm. Xidmətim dövründə ən yaddaqalan günüm hərbi andiçmə mərasimi olub. Bir əlim əsgər yoldaşımın çiynində, bir əlim isə silahımda Vətənə sədaqət andi içdiyim günü heç vaxt unutmaram. İlk dəfə döyüş növbəsinə çıxdığım gün də öz həyəcanı ilə yaddaşımdadır. Həmin gün mənə ən məsuliyyətli vəzifə tapşırılmışdı. Post başçısı tərəfindən təlimlatlandırıldıqdan sonra əsgər yoldaşımdan döyüş növbətçiliyini təhvil aldım. Gözüm nişangahda, barmağım tətikdə düşmən qarşısında dayananda çox qürurlandım.

Samirə görə, hərbi xidmət həm də gənclər üçün bir həyat məktəbidir. "Bu məktəbdə hər kəs vacib keyfiyyətlərə yiyələnir. Orta məktəb illərində Zəlimxan Yaqubun çox sevdiyim bir şeirindən misralar dilimin əzbəri olmuşdu. Hər dəfə atamdan bu misraların mənasını soruşardım. O, isə "Əsgər formasını geyinib ordunun sıralarında olanda özün anlayacaqsan" deyirdi.

*Mənə ordu gərəkdir,*
*xəstəyə dərman kimi,*
*Mənə ordu gərəkdir,*
*nəfəs kimi, can kimi.*
*Mənə ordu gərəkdir,*
*sarsılmaz cahan kimi.*
*Ordum varsa, yurdum var,*
*Ordum yoxsa, yurdum yox!*

Ordu sıralarında keçdiyim xidmət yolu mənə ölməz şairin nə demək istədiyini anlatdı. Ordunun xalq üçün qürur mənbəyi, güvənc yeri olduğunu dərindən başa düşdüm. Məncə, bütün gənclər hərbi xidmət keçməlidirlər. Çünki hərbi xidmət həm də bir kişilik məktəbidir. Bu mərhələdə fiziki və mənəvi-psixoloji cəhətdən formalaşırıq, həyatın çətinlikləri ilə ayaqlaşmağı öyrənirik. Hərbi xidmət Vətənə bağlılıq, vətənpərvərlik hissləri aşılamaqla yanaşı, hər kəsdə mətinlik, dözümlülük, qorxmazlıq formalaşdırır. Bundan başqa, hərbi silahlardan, texnikadan istifadə etməyi bacaran döyüşçü kimi yetişirsən."

Sonda əsgər Samir İsmayılov xidmətdə ona diqqət və qayğı göstərən, bilik və bacarıqlarını əsirgəməyən, onu vətənpərvər döyüşçü kimi yetişdirən komandirlərinə minnətdarlığı bildirir. Ən başlıcası isə, əsgər yoldaşları ilə çiyin-çiyinə döyüşə atılmağa hər an hazır olduğunu əminliklə deyir...

**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

# Müasir yerüstü robotlar



Müasir hərbi yerüstü robotlar kəşfiyyat, mühəndis, döyüş robotlarına bölünür. Tələbatdan asılı olaraq müxtəlif modullarda quraşdırılır. Onları istehkamçı-robotdan döyüşçü robota çevirmək asandır. Belə hərbi robotları şərti olaraq üç böyük qrupa - yüngül, orta və ağır qrupa bölmək olar.

Döyüş robotları distansion və pultla idarə olunan aparatdan ibarətdir. Robotlaşdırılmış mexanizmlər nəzərdə tutulmuş proqram üzrə hərəkət edə bilər. Çoxlu sayda belə robotlar mövcuddur ki, onlar ölçüsünə, formasına, şassisinə və manipulyatoruna görə fərqlənirlər.

Kəşfiyyat robotları məlumatların toplanması, hədəflərin tapılması və hədəflərin göstəricisi kimi istifadə edilir. Belə məqsədlər üçün avtomatlaşdırılmış uçan aparatlardan və yerüstü robotlardan da istifadə edirlər. Onlardan biri miniatür "Recon Scout" robot-kəşfiyyatçıdır ki, hazırda ABŞ ordusu tərəfindən istifadə edilir. Onun çəkisi 1.3 kiloqram və uzunluğu 200 mm-dir. Adi infraqırmızı kamera ilə təchiz olunub. Hərbi əməliyyatlarda ən çox istifadə ediləni "Dragon Runner"dir. Ondan nəinki kəşfiyyat aparmaq, partlayıcı maddələrin zərərsizləşdirilməsi üçün istifadə edilir. Bu robot vasitəsilə 50 minə qədər partlayıcı zərərsizləşdirilib. Onun yeni modifikasi-



yası yaradılıb ki, üzərində pulemyot, snayper tüfəngi tankələyhinə raket kompleksi də quraşdırmaq olar.

Mühəndis robotlarından əsasən mina və fuqasların zərərsizləşdirilməsi, minalanmış sahələrdə keçidlərin hazırlanması, ağır yüklərin qaldırılması və dağılmış ərazilərin təmizlənməsində istifadə etmək olar. Mühəndis robotlarından biri MV-4-dür (və ya M160). Onun çəkisi 5.32 ton təşkil edir. Ondan dərinlikdə yerləşən minaların zərərsizləşdirilməsində daha çox istifadə edilir. İki kilometrlik məsafəyə qədər distansion idarə olunur. Bu da istehkamçılara təhlükəsiz işləməyə imkan verir.

Döyüş robotları sırasında İsrailin pilotsuz avtomobili olan"Guardium" əsas yer tutur. Patrul xidmətinin daşınmasında, kolonların mühafizəsində, kəşfiyyat işində və s.-də istifadə edilir. Onun üzərində silah da quraşdırmaq olar.

"SWORDS" robotu isə müxtəlif təyinatlı silahları daşımağa qadirdir. Onun birinin qiyməti 150 min dollardır. "Warrior" robotunun üzərində isə 7.62 mm-li pulemyot və digər silahlar quraşdırmaq, istehkamçıları, yaralıları daşımaq olar. "CAMEL" döyüş robotu isə hərbi bölmələri müşayiət etmək üçün nəzərdə tutulub.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:

## hadisələr, faktlar

### Pakistanın Laxor şəhərində İŞİD terror təşkilatının üç üzvü saxlanılıb



Pakistanın Laxor şəhərindəki hökumət idarələrində terror aktı törətmək istəyən İŞİD terror təşkilatının üç üzvü saxlanılıb.

Hüquq-mühafizə orqanlarının nümayəndələri onların üzərində 1.5 kiloqram partladıcı maddə və digər silah-sursatlar aşkar edib.

Qeyd edək ki, təşkilatın üzvləri Pakistan və Əfqanıstanda əhalinin toplaşdığı yerlərdə teztez terror aktları törədirlər.

### Boliviyada AH1N1 virusu 21 nəfərin həyatına son qoyub




Boliviyada yayılmış AH1N1 virusu 21 insanın həyatına son qoyub.

Bu barədə ölkənin Epidemiologiya Departamenti məlumat yayıb.

Artıq Santa-Krus bölgəsində "qırmızı" dərəcəli həyəcan siqnalı elan edilib.

### Madaqaskarda törədilən partlayış nəticəsində 80-dən çox insan xəsarət alıb




Madaqaskarın paytaxtındakı "Maxamasima" stadionunda qumbara partladılması nəticəsində azı 84 insan xəsarət alıb, 2 nəfər həlak olub.

Madaqaskar Prezidenti Silahlı Qüvvələrə ölkə əhalisinin təhlükəsizliyini təmin etmək əmri verib.

Hakimiyyət orqanları hadisəni terror aktı hesab edirlər. Partlayıcı qurğu ölkənin müstəqilliyinin 56-cı ildönümünə həsr olunmuş bayram konserti zamanı işə salınıb. Stadionda təşkil olunan pulsuz konsertdə tribunalar tamaşaçı ilə dolu olub.

### Daşqınlar ABŞ-da 26 nəfərin ölümünə səbəb olub



ABŞ-ın Qərbi Virciniya ştatında baş vermiş daşqınlar 26 nəfərin ölümünə səbəb olub.

Təbii fəlakət zamanı 100-dək ev uçub, həmçinin yollara və infrastruktura ciddi ziyan dəyib. On minlərlə ev işıqsız qalıb.

Ştatın 44 dairəsində fövqəladə vəziyyət elan edilib, axtarış-xilasetmə işləri davam etdirilir.

### İtaliyada 20 il axtarışda olan mafioz həbs edilib



İtaliyanın hakimiyyət orqanları ən çox axtarılan mafiya üzvlərinin siyahısında ikinci sırada yer alan Ernesto Fatsaralini həbs ediblər. Ölkənin ən böyük mafiya qruplaşması "Ndrangeta"nın üzvü olan Ernesto 20 ildən çox axtarışda idi. Hüquq mühafizə orqanlarının məlumatına görə, o, ölkənin cənubunda yerləşən Kalabriyadakı evində aşkarlanıb və saxlanilarkən polisə müqavimət göstərməyib. Ernestonu ömürlük həbs cəzası gözləyir. Bir qədər əvvəl məhkəmə onu qətldə, mafiya fəaliyyətində, narkotik vasitə ticarətində, qarətdə, qanunsuz silah saxlamaqda təqsirli bilmişdi.

**AZƏRTAC-ın materialları əsasında**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
Əbülfət QASIMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 414
Nüsxə 4700